QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 236 (5467) 23 **dekabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


## İlham Əliyev: "Azərbaycan dünya müsəlmanlarının həmrəyliyi işinə bundan sonra da öz töhfəsini verəcək"

*Prezident İlham Əliyev Rusiyanın Şimali Qafqaz respublikalarından olan bir qrup müsəlman din xadimindən ibarət nümayəndə heyətini qəbul edib*



Səh 2

### Mamuka Baxtadze: "Azərbaycan Gürcüstan üçün əsas investor olaraq qalır"

Bax 10

Azərbaycan Gürcüstanın strateji tərəfdaşdır və bizim ölkə üçün əsas investor olaraq qalır. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanda səfərdə olan Gürcüstanın maliyyə naziri Mamuka Baxtadze deyib. Azərbaycanda uğurlu islahatların aparıldığını deyən nazir qeyd edib ki, səfərinin məqsədi təcrübə mübadiləsidir. Nazir deyib: "Azərbaycanla Gürcüstanın ticarət-iqtisadi münasibətlərinin çox yaxşı perspektivi var. Bu il ölkələrimiz arasında ticarət dövriyyəsində artım olub.

### Təşəkkürlər, Paraqvay!

Bax 7

Erməni hərbi birləşmələrinin Rusiyanın 366-cı motoatıcı alayı ilə birlikdə törətdikləri Xocalı soyqırımından 26 ilə yaxın vaxt ötür. Artıq iki aydan bir az artıq müddətdən sonra, bu insanlıq faciəsinin 26-cı ili tarixin qanlı səhifəsinə yazılacaq. Ötən illər ərzində Xocalı soyqırımının tanıdılması üçün Azərbaycan dövləti kifayət qədər işlər görüb və dünyanın bir çox ölkə və təşkilatları hadisəni soyqırımı kimi tanıyıb. Belə ki, bu günə qədər Xocalı soyqırımını tanıyan ölkələr və təşkilatlar bunlardır: Meksika (02.02.2012-ci il tarixində Meksika Senatı Xocalı faciəsini soyqırımı adlandırıb...

### "Azərbaycan bütün məsələlərə sayqı ilə yanaşır"

Bax 13

BMT Baş Assambleyası ABŞ-ın Qüdsü İsrailin paytaxtı kimi tanımasına dair qərarının qəbuledilməz olması barədə qətnamə qəbul edib. Bu kimi mühüm beynəlxalq məsələlərin həllində Azərbaycanın nümayiş etdirdiyi mövqe beynəlxalq hüququn aliliyinə hörmətin, sülhün və təhlükəsizliyin, tolerantlığın möhkəmlənməsinə əməli töhfələrin bariz nümunəsidir.Məsələ ilə bağlı SİA-ya açıqlama verən siyasi şərhçi Elçin Mirzəbəyli deyib ki, Azərbaycanın nümayiş etdirdiyi mövqe birmənalı ...


İlham Əliyev - uğurlu lider, düşünülmüş strategiya



5

İLHAM ƏLİYEV - XALQIN MARAQLARINDAN ÇIXIŞ EDƏN XARİZMATİK LİDER!



8

Heydər Əliyev Mərkəzində Xalq Rəssamı Ömər Eldarovun fərdi sərgisi açılıb



3

Azərbaycanın Qüds məsələsindəki qətiyyətli mövqeyi alqışlanır!



10

Dövlət Komitəsində görüş olub



6

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru və Himayəçilər Şurasının üzvləri təyin edilib

6

14

Sinoptiklərdən xəbərdarlıq...



7

Dövlət qeydiyyatına alınmış dini icmalara şəhadətnamələr təqdim edilib



16

"İmperator" yenidən "Qalatasaray"da!



# İlham Əliyev: "Azərbaycan dünya müsəlmanlarının həmrəyliyi işinə bundan sonra da öz töhfəsini verəcək"

*Prezident İlham Əliyev Rusiyanın Şimali Qafqaz respublikalarından olan bir qrup müsəlman din xadimindən ibarət nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından olan bir qrup müsəlman din xadimindən ibarət nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Bakıda keçirilən "2017- İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransa toxunaraq bu tədbirin müxtəlif dinlərin və xalqların bir-birinə daha da yaxınlaşması, beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verdiyini dedi. Dövlətimizin başçısı Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından dini rəhbərlərin böyük heyətlə bu konfransda iştirakından məmnunluğunu ifadə etdi, mütəmadi keçirilən bu cür görüşlərin Rusiya Federasiyası, o cümlədən Şimali Qafqaz respublikaları ilə Azərbaycan arasında dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi işinə xidmət etdiyini vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, "İslam Həmrəyliyi İli" elan olunmuş 2017-ci ilin başa çatmasına baxmayaraq, Azərbaycan dünya müsəlmanlarının həmrəyliyi, müsəlman ölkələri arasında əməkdaşlıq işinə bundan sonra da öz töhfəsini verəcək və bu baxımdan təsis olunacaq koordinasiya şurası gələcək birgə fəaliyyətin həyata keçirilməsi üçün yaxşı imkan yaradacaq.

Qonaqlar adından danışan Qaraçay-Çərkəz Respublikasının müftisi İsmail Berdiyev Prezident İlham Əliyevlə görüşlərindən həmişə olduğu kimi, böyük məmnunluq hissi keçirdiklərini dedi. O, "2017-İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransın yüksək səviyyədə təşkil olunması işinə verdiyi dəstəyə görə Azərbaycan Prezidentinə dərin təşəkkürünü bildirdi, tədbirin xalqlar arasında dostluğun möhkəmlənməsi işinə töhfə verdiyini məmnunluq hissi ilə qeyd etdi. Ulu öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edən İsmail Berdiyev onun Azərbaycan xalqının rifahı naminə həyata keçirdiyi siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini dedi. Qonaq hər dəfə olduğu kimi, Azərbaycana budəfəki səfərləri zamanı da ölkəmizdə gördükləri inkişaf proseslərinin onlarda böyük təəssürat yaratdığını qeyd etdi.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən dövlətimizin başçısı vurğuladı ki, Azərbaycanın son illər əldə etdiyi sürətli iqtisadi inkişafın təmin olunmasında, xalqımızın rifah halının yaxşılaşdırılmasında cəmiyyətimizdə hökm sürən sabitlik, müxtəlif dinlərin və xalqların nümayəndələrinin bir ailə şəklində mehriban yaşamaları böyük rol oynayır. Müsəlman ölkələrində narahatlıq doğuran problemlərin mövcud olduğunu deyən Prezident İlham Əliyev bunların aradan qaldırılması üçün müsəlman ölkələri arasında həmrəyliyin gücləndirilməsinin böyük önəm daşıdığını dedi və Azərbaycanın bu işə bundan sonra da töhfə verməkdə davam edəcəyini vurğuladı.

# Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Gürcüstanın maliyyə naziri Mamuka Baxtadzeni qəbul edib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Mamuka Baxtadzeni yeni vəzifəyə təyin olunması münasibətilə təbrik etdi və ona fəaliyyətində uğurlar arzuladı.

Təbrikə görə minnətdarlığını bildirən Mamuka Baxtadze bundan əvvəl "Gürcüstan Dəmir Yolları" Səhmdar Cəmiyyətinin baş direktoru vəzifəsində çalışarkən Bakı-Tbilisi-Qars layihəsinin icrasında iştirak etməsini məmnunluqla vurğuladı.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, ölkələrimizin maliyyə qurumları arasında əməkdaşlığın bu işə verdiyi töhfə qeyd olundu.



Azərbaycan ilə Gürcüstanın birgə həyata keçirdiyi qlobal layihələrə toxunulan görüşdə Bakı-Tbilisi-Qars layihəsinin regional və beynəlxalq iqtisadi əməkdaşlıq baxımından önəmi qeyd edildi. Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Rəsmi xronika

Azərbaycan Prezident İlham Əliyev Çili Respublikasının yeni seçilmiş Prezidenti Sebastian Pinyeraya təbrik məktubu ünvanlayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Yaponiyanın İmperatoru Akihitoya təbrik məktubu göndərib.

* * *

Prezident İlham Əliyev Elxan Hüseynovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə sahəsində əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Elza İbrahimovanın 80 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 17 noyabr tarixli 873-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 17 noyabr tarixli 872-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 897-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət borcu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 avqust tarixli 610 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 898-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 946-VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 899-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

# Prezident İlham Əliyev: "Azərbaycan nadir ölkələrdəndir ki, həm Avropa Şurasının, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvüdür"

## "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 48-ci kitabı çapdan çıxıb




Əsrlər boyu Azərbaycan sivilizasiyaların qovuşduğu bir məkan olmuşdur və bu gün həm Şərqlə, həm Qərblə əməkdaşlıq siyasətimiz də, düşünürəm ki, xalqımızın çoxəsrlik adət-ənənələrinin və ölkəmizin coğrafi yerləşməsinin nəticəsidir. Bu siyasəti həyata keçirmək bizim üçün çətin deyildir. Əgər sizin öz mövqeyiniz varsa, müstəqil siyasət yürüdürsünüzsə və əgər siz etibarlı tərəfdaşsınızsa xarici siyasət təşəbbüslərini həyata keçirmək asan olur. Deyə bilərəm ki, bu gün bizim müsəlman dünyası ölkələri ilə çox yaxşı münasibətlərimiz vardır. İslam dünyasının bir hissəsiyik. Eyni zamanda, Avropa ölkələri ilə də yüksək səviyyədə əlaqələrimiz qurulub, biz Avropa təsisatları ilə fəal əməkdaşlıq həyata keçiririk. Azərbaycan nadir ölkələrdəndir ki, həm Avropa Şurasının, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvüdür.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 48-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı "Əl-Cəzirə" televiziya kanalına müsahibəsində söyləyib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 48-ci kitabında toplanan materiallar 2011-ci ilin sentyabrından noyabrınadək olan dövrü əhatə edir. Bu kitab Prezident İlham Əliyevin Polşa Respublikasına işgüzar səfərinə dair materialla başlayır.

Nəşrin 48-ci kitabında dövlətimizin başçısının həyata keçirdiyi uğurlu daxili və xarici siyasətə, iqtisadi potensialın möhkəmlənməsinə, ordu quruculuğuna, regionların sosial inkişafının təmin olunmasına, cəmiyyətimizin demokratikləşdirilməsi istiqamətində önəmli nailiyyətlərə və ictimai-siyasi həyatın digər sahələrinə dair nitqləri, çıxışları, tövsiyələri öz əksini tapıb.

Bu cilddə Prezident İlham Əliyevin Türkiyə və Qazaxıstana səfərlərinə, bu ölkələrin dövlət və hökumət başçıları ilə apardığı danışıqlara, imzalanan sənədlərə və mətbuata bəyanatlarına dair materiallar toplanıb. Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini regionun inkişafına əngəl olan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək olmağa çağırıb.

Kitabda Fransa, Avstriya, Macarıstan və Bolqarıstan prezidentlərinin Azərbaycana səfərləri zamanı bu ölkələrin dövlət və hökumət rəhbərləri ilə çoxşaxəli əlaqələrin inkişafından, enerji və qeyri-neft sektoru üzrə bağlanan müqavilələr və sazişlərdən, beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsindən bəhs olunur. Bu cilddə, həmçinin Azərbaycan Prezidentinin Şərq tərəfdaşlığı sammitində iştirakına, ölkəmizə gəlmiş bir sıra beynəlxalq təşkilatların nümayəndələri, mədəniyyət və din xadimləri ilə görüşlərinə dair materiallar, kütləvi informasiya vasitələrinə və xarici telekanallara verdiyi müsahibələri yer alıb.

"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 48-ci cildində, eyni zamanda, Prezidentin Ağdaş, Ucar, Ağsu, Oğuz, Qax, Şəki və Qəbələyə səfərləri, o cümlədən bu rayonların ictimaiyyət nümayəndələri ilə görüşləri, bir sıra obyektlərin açılış və təməlqoyma mərasimlərində iştirakı barədə materiallar toplanıb. Kitaba "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri də daxil edilib. "Azərnəşr" tərəfindən buraxılan 48-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Heydər Əliyev Mərkəzində Xalq Rəssamı Ömər Eldarovun fərdi sərgisi açılıb



Dekabrın 21-də Heydər Əliyev Mərkəzində Xalq Rəssamı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru Ömər Eldarovun 90 illik yubileyi ilə bağlı "Gözəllik və monumentallıq" adlı fərdi sərgisi açılıb. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərginin açılışında iştirak edib. Sərgidə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, tanınmış elm, mədəniyyət və incəsənət xadimləri də iştirak ediblər.



Sərginin açılışında Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov Birinci vitse prezident Mehriban Əliyevanın Xalq Rəssamı Ömər Eldarova 90 illik yubileyi münasibətilə ünvanladığı təbrik məktubunu oxuyub. Məktubda Ömər Eldarovun Azərbaycan heykəltəraşlıq sənətinin inkişafında misilsiz xidmətləri vurğulanıb, görkəmli incəsənət xadiminin xalqımızın mənəvi təkamülünə, gənclərimizin estetik tərbiyəsinə mühüm töhfələr verdiyi, Azərbaycanın dahi şəxsiyyətlərinin unudulmaz obrazlarını gözəl abidələrə çevirərək milli heykəltəraşlıq məktəbini zənginləşdirdiyi qeyd edilib. Bildirilib ki, Ömər Eldarov uzun illər ərzində milli mədəniyyətimizin təbliği ilə bağlı böyük səylər göstərib, Azərbaycan heykəltəraşlıq sənətini bütün dünyada layiqincə təmsil edib, ölkəmizdə yeni sənətkarlar nəslinin yetişdirilməsi, gənc rəssamlarımızın böyük sənətə cəlb olunması və onlarda bədii-estetik zövqün formalaşdırılması işinə xidmət edən pedaqoji fəaliyyət göstərib.




Tədbirdə çıxış edən yubilyar əməyinə verilən yüksək qiymətə görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlığını bildirib. Xalq Rəssamı deyib ki, bu günlər onun üçün xüsusilə əlamətdardır. Bir çox mükafatlara layiq görüldüyünü xatırladan Ömər Eldarov vurğulayıb ki, Azərbaycanın ən yüksək mükafatı - "Heydər Əliyev" ordeninə layiq görülməsindən şərəf hissi duyur. Görkəmli heykəltəraş ulu öndər Heydər Əliyevin mədəniyyət və incəsənət xadimlərinə göstərdiyi diqqətdən də söz açıb. Altı yaşından təsviri incəsənət sahəsinə maraq göstərdiyini deyən Ömər Eldarov sərgidə nümayiş olunan əsərlərin onun iç dünyasını, baxışlarını tərənnüm etdiyini söyləyib.

Sonra görkəmli heykəltəraşın ailəsi adından onun oğlunun yaratdığı rəsm əsasında tərtib edilmiş və yubiley münasibətilə hazırlanmış xatirə hədiyyələri Xalq Rəssamına təqdim olunub.

Əməkdar Memar Rasim Əliyev Xalq Rəssamı Ömər Eldarovun zəngin yaradıcılığından söz açaraq söyləyib ki, onun bütün əsərləri orijinallığı ilə seçilir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da görkəmli heykəltəraşı təbrik edib, ona yaradıcılığında yeni-yeni uğurlar arzulayıb.

Ömər Eldarov ona göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısı İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya, eləcə də Leyla Əliyevaya minnətdarlığını bildirib. Sonra qonaqlar sərgi ilə tanış olublar. Ekspozisiyada Xalq Rəssamının bürünc, ağac, daş və digər materiallardan hazırladığı 30-dan çox heykəltəraşlıq nümunəsi sərgilənir. Ömər Eldarov Azərbaycanın bir çox görkəmli şəxsiyyətlərinin xatirəsini əbədiləşdirən heykəllərin, abidələrin müəllifidir. O, hər bir əsərində təsvir etdiyi şəxsin fərdi xüsusiyyətlərini üzə çıxarır, portret oxşarlığı yaratmaqla yanaşı, öz qəhrəmanının mənəvi və insani keyfiyyətlərini ifadə edir. Görkəmli rəssam insanın daxili dünyasının özəlliklərini təxmin etməyə imkan verən xarakterik duruşu, jesti, həmin şəxsin davranışındakı xüsusiyyətləri əsərlərinə həkk edir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsi, görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın məzarüstü abidəsi və onun xatirəsinə həsr olunan "Elegiya" Ömər Eldarovun məşhur əsərləridir.

Ömər Eldarov dövlət tərəfindən bir sıra mükafat və fəxri adlarla təltif olunan görkəmli monumentalistdir. O, 1960-cı ildə Azərbaycan SSR-in Əməkdar İncəsənət Xadimi fəxri adına layiq görülüb, 1967-ci ildə isə SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü seçilib. 1980-ci ildə tacik yazıçısı və maarifçisi Sədrəddin Ayninin Düşənbə şəhərində ucaldılmış abidə-ansamblını yaratdığına görə SSRİ Dövlət Mükafatı ilə təltif olunub. 1982-ci ildə Azərbaycanın Dövlət Mükafatı, 1997-ci ildə "İstiqlal" ordeni, 2009-cu ildə Heydər Əliyev Mükafatı, 2017-ci ildə isə "Heydər Əliyev" ordeninə layiq görülüb.

Onun yaradıcılığının coğrafiyası Azərbaycanla məhdudlaşmır. Sevastopolda II Dünya müharibəsi zamanı Sapun dağından başlamış hücumun iştirakçısı olmuş 77-ci Azərbaycan diviziyasına həsr edilən abidənin müəllifi Ömər Eldarovdur. Heykəltəraşın müəllifi olduğu əsərlər bir neçə ölkədə ucaldılıb.

Ömər Eldarov yalnız monumental abidələrin müəllifi deyil. O, həm də bir sıra dəzgah heykəltəraşlığı nümunələri yaradıb.

# “The Financial Times” qərəzləri sayəsində illərdir qazandığı imicini itirə bilər

Ölkəmizin ictimai rəyi zaman-zaman bəzi Qərb siyasi dairələrinin, eləcə də, həmin dairələrin əllərində alətə çevrilmiş mediaların qərəzlərinin şahidi olmaqdadır. Söz yox ki, ilk növbədə, bu kimi halların arxasında Azərbaycanın dayanıqlı və köklü əsaslara söykənən inkişafı faktorunun mövcudluğu dayanır və nəticədə, bunu həzm edə bilməyən məkrli qüvvələr bənzər addımlara əl atırlar. Lakin bu addımların uğursuzluğa düçar olması, yaxud da sifarişli olması da kimsəyə sirr deyil. Xüsusilə, Azərbaycanda olan demokratik dəyərlərin get-gedə güclənməsi, ölkəmizin bütün sferalarda liderlik mövqeyinə yüksəlməsi, xalq-dövlət vəhdətinin sarsılmazlığı və s. çoxsaylı cəhətlər, istər-istəməz bəzi Qərb dairələrində qıcıq yaradıb. Çünki mövcud inkişaf və tərəqqisi ilə müstəqil Azərbaycanın iqtisadi, hərbi və s. sferaları əhatə edən gücü daha da artmağa başlayıb. Regional və beynəlxalq layihələrdə əsas təşəbbüskar qismində çıxış edən ölkəmizun bu uğurları həmin dairələri ciddi şəkildə narahat etməyə başlayıb. Məhz bu baxımdan, bir neçə gün öncə “The Financial Times” nəşrində dərc olunan “Avropa Şurası insan haqlarından imtina edir?” başlıqlı məqalə Azərbaycanla bağlı fikirlərin, bilavasitə məqsədli qarayaxma olduğu qənaətinə gələ bilərik.



**Əli Həsənov: “Bu qüvvələr bütün mümkün vasitələrdən istifadə edərək Azərbaycanın nüfuzunu ləkələməyə, beynəlxalq ictimaiyyətdə onun haqqında mənfi rəy formalaşdırmağa cəhd göstərirlər”**

**“FT” və digər bu kimi tanınmış nəşrlərin bəlli dairələr tərəfindən süni şəkildə təşkil edilmiş qarayaxma kampaniyasına qoşularaq Azərbaycanı hədəf götürməsi, ardıcıl olaraq, əsassız ittihamlarla çıxış etməsi yalnız təəssüf doğura bilər”**

Bu arada, Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, sözügedən məsələ ilə bağlı irəli sürdüyü fikirləri bir sıra faktlara əsaslanmaqla, digər mühüm təhlilləri də ortaya çıxarmış olur.

Onun sözlərinə görə, irəli sürülən iddialar subyektiv xarakter daşıyır, qərəzlidir və müəyyən xarici anti-Azərbaycan dairələrin çirkin maraqlarına xidmət edir. “FT” və digər bu kimi tanınmış nəşrlərin bəlli dairələr tərəfindən süni şəkildə təşkil edilmiş qarayaxma kampaniyasına qoşularaq Azərbaycanı hədəf götürməsi, ardıcıl olaraq, əsassız ittihamlarla çıxış etməsi yalnız təəssüf doğura bilər”-deyə qeyd edən Əli Həsənov onu da bildirib ki, Azərbaycan dünyada demokratiya yolu ilə inkişaf edən, güclü iqtisadiyyata, yüksək beynəlxalq nüfuza malik, bütün azadlıqların təmin olunduğu ölkə, stabillik, təhlükəsizlik və tolerantlıq məkanı kimi tanınır.

Bəli, məhz bu danılmaz faktların ortada olması “FT” timsalında fəaliyyət göstərən bəzi Qərb medialarının müzakirə obyektinə çevrilir. Bu müzakirələrin qaynaq nöqtələrində erməni lobbisinin barmağının olması isə şübhəsizdir. Çünki müxtəlif dövrlərdə və bütün istiqamətlərdə qarayaxmaları, böhtanları vasitəsilə ölkəmizin öndə olan, reallaşdırılan siyasi-iqtisadi və s. maraqlarına qarşı çıxan hər bir məqalələrin əsasından, məhz erməni lobbisinin, o cümlədən, bu lobbiyə işləyən siyasi cəhətdən korrupsiyalaşmış müxtəlif Qərb siyasilərinin adları çıxır.

**“Azərbaycan Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycan xalqının milli maraqlarına xidmət edir və cəmiyyət tərəfindən hərtərəfli dəstək qazanıb”**

Başqa tərəfdən, ortada Prezident İlham Əliyev faktorunun da olması, Onun həyata keçirdiyi məqsədyönlü, qətiyyətli siyasəti, eləcə də, liderlik xarizması bu gün hadisələri real qiymətləndirən xarici təşkilatlar tərəfindən, qərəzsiz olaraq dəyərləndirilməkdədir. Misal üçün, bu xüsusda xatırlatma edən Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Hollandiyanın ACT LLC humanitar tərəfdaşlıq təşkilatının Avropa İttifaqının “Şərq Tərəfdaşlığı” proqramının sifarişi ilə keçirilən sorğusunun nəticələrini nümunə gətirib. SİTAT: “Azərbaycan Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycan xalqının milli maraqlarına xidmət edir və cəmiyyət tərəfindən hərtərəfli dəstək qazanıb. Azərbaycanda həm yerli, həm də Avropa İttifaqı ölkələrinə aid şirkətlərin apardıqları araşdırma bu faktı bir daha təsdiqləyir. Təsadüfi deyil ki, Hollandiyanın ACT LLC humanitar tərəfdaşlıq təşkilatı tərəfindən Avropa İttifaqının “Şərq Tərəfdaşlığı” proqramının sifarişi ilə keçirilən sorğunun nəticəsinə əsasən, Azərbaycan vətəndaşlarının 81%-i hakimiyyətin həyata keçirdiyi siyasətə öz dəstəyini ifadə edib. Təbii ki, bu amil Ermənistan və erməni lobbisini, onların xaricdəki havadarlarını ciddi narahat edir. Bu qüvvələr bütün mümkün vasitələrdən istifadə edərək Azərbaycanın nüfuzunu ləkələməyə, beynəlxalq ictimaiyyətdə onun haqqında mənfi rəy formalaşdırmağa cəhd göstərirlər. “FT” kimi nəşrlərin bu dairələrin əlində vasitəyə çevrilməsi ciddi nöqsan və transmilli medianın müstəqilliyinə xələl gətirən haldır”.

**“Azərbaycana qarşı təşkil edilən bu tipli kampaniyaların səmərəsizliyi artıq sübuta yetirilmişdir və cəmiyyətimizdə istehza ilə qarşılanır”**

Məqalənin əvvəlində də, qeyd etdiyimiz kimi, zaman-zaman göstərilən bu cəhdlər heç bir vəchlə özünü doğrultmamış qalacaq. Belə ki, istər ölkə ictimaiyyəti tərəfindən, istərsə də Azərbaycanda cərəyan edən hadisələrə doğru yanaşmalar etməyi bacaran müxtəlif Qərb qurumları tərəfindən ciddi qəbul olunmayan iddiaları real qəbul etmirlər. Ona görə də, Əli Həsənov “FT” kimi qərəzli sifarişlərlə işləyən korrupsioner nəşrlərin apardıqları anti-Azərbaycan kampaniyalarının özünü təsdiq etməyəcəyini vurğulayıb. “Azərbaycana qarşı təşkil edilən bu tipli kampaniyaların səmərəsizliyi artıq sübuta yetirilmişdir və cəmiyyətimizdə istehza ilə qarşılanır”-vurğulayan dövlət rəsmisi, onu da bildirib ki, həmin qarayaxmaların təşkilatçıları və icraçıları bu reallığı nə qədər tez başa düşsələr, bir o qədər də öz nüfuz limitini qoruyub-saxlamış olacaqlar. Yəni “FT” kimi nəşrlər illərdir qazandıqları imiclərini bu kimi çirkin niyyətlər hesabına itirmək təhlükəsi yaşaya bilərlər.

*Rövşən NURƏDDİNOĞLU*

# Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümünə həsr olunmuş “Debat turniri” layihəsinin yekun tədbiri keçirilib



Dekabrın 22-də Bakı Ali Neft Mərkəzində YAP Gənclər Birliyi və DVC-nin birgə təşkilatçılığı ilə milli debat proqramı çərçivəsində Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümünə həsr olunmuş “Debat turniri” layihəsinin yekun tədbiri keçirilib.

Tədbir dövlət himninin səsləndirilməsi ilə başlayıb. Tədbirdə çıxış edən YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov



partiyanın 25 illik yubileyi münasibətilə tədbir iştirakçılarını təbrik edib. YAP-ın tarixi zərurətdən yaranan partiya olduğunu deyən S.Novruzov bildirib ki, gənclərimiz partiyanın gələcəyidir. Onun sözlərinə görə, YAP-da bütün təbəqələrin nümayəndələri təmsil olunurlar. O cümlədən partiyamızda yaşlı və gənc nəslin vəhdəti var.

YAP İcra katibinin müavini 2017-ci ilin ölkəmiz üçün uğurlu olduğunu deyib: “Başa çatmaqda olan 2017-ci il ölkəmiz üçün uğurlu oldu. Prezident İlham Əliyevin rəhbərliyi Azərbaycan böyük nailiyyətlər qazanıb. Bu ilə ərzində ölkəmiz üçün bir sıra əlamətdar hadisələr baş verdi. Bunların sırasında “Əsrin müqaviləsi”nin uzadılmasına dair sazişin imzalanması və Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin istifadəyə verilməsi xüsusilə qeyd edilməlidir. Çünki hər iki hadisə Azərbaycanın gələcəyi üçün çox önəmlidir. Bu layihələr ölkəmizin təhlükəsizliyinin daha da güclənməsi, qüdrətlənməsi və müstəqilliyimizin əbədiliyinin təmin olunması baxımından müstəsna əhəmiyyət kəsb edir. Əlbəttə ki, bütün bunlar ölkəmizdə Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin parlaq nəticələridir. Bütövlükdə, 2017-ci il Azərbaycanın beynəlxalq miqyasda nüfuzunun daha da artması, sosial-iqtisadi inkişafın daha da sürətləndirilməsi baxımından uğurlu il oldu”.

YAP Gənclər Birliyinin önəmli layihələr həyata keçirdiyini deyən S.Novruzov qeyd edib ki, bu layihələr bütövlükdə ölkə gəncləri tərəfindən maraqla qarşılanır. “Debat turniri” də məhz belə layihələrdəndir. Onun sözlərinə görə, bu gün ölkəmizdə yüksək intellektli gənclər yetişib ki, onların da mütləq əksəriyyəti partiyamızın sıralarında birləşib.

Çıxış edən Bakı Ali Neft Məktəbinin rektoru, YAP Siyasi Şurasının üzvü Elmar Qasımov Yeni Azərbaycan Partiyasının sıralarında on minlərlə gəncin birləşdiyini vurğulayıb. O qeyd edib ki, YAP böyük siyasi məktəbdir və gənclərimiz bu siyasi məktəbdən öz gələcəkləri üçün faydalanırlar. Azərbaycan gənclərinin yüksək təhsil almaları üçün ölkəmizdə bütün şəraitin yaradıldığını deyən E.Qasımov BANM-ın uğurlarından da bəhs edib.

Daha sonra tədbirdə Prezident İlham Əliyevin Bakı Ali Neft Məktəbinin yeni kampusunun açılışında çıxışını özündə əks etdirən video material nümayiş etdirilib.

Sonra “Debat turniri”nin final mərhələsinə vəsiqə qazanmış Səbail və Yasamal rayonlarını təmsil edən komandalar debatlar aparıb. Yekunda qalib və finalçı komanda üzvləri, o cümlədən ən yaxşı natiqlər, hakim və məşqçi mükafatlandırılıb.

Tədbirin sonunda YAP Gənclər Birliyi və DVC arasında əməkdaşlıq memorandumu imzalanıb. Memorandumun məqsədi birgə əməkaşlıq çərçivəsində gənclərin inkişafını təmin etmək, ictimai debatlar təşkil edərək Bakı şəhəri və regionlarda yaşayan gənclərin dünyagörüşü və biliklərinin artırılması istiqamətində yeni layihələrə imza atmaqdır.

Xatırladaq ki, dekabr ayının ilk həftəsində YAP Gənclər Birliyinin Bakı şəhəri üzrə müxtəlif nümayəndəliklərinə üzv olan gənclərə debat təlimləri keçirilib, komandalar formalaşdırılıb. Məşq prosesində fəal iştirak edən debatçı gənclər dekabrın 16 və 17-i keçirilmiş qrup və play-off mərhələsində iştirak edərək “Qarabağ MDB məkanında ən böyük münaqişə ocağıdır” mövzusunda debatlar aparıblar.

# İlham Əliyev - uğurlu lider, düşünülmüş strategiya

***Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətində əldə edilən hər bir uğur Ulu Öndər Heydər Əliyevin zəkasının təcəssümü, onun irsən qoyub getdiyi milli tərəqqi ideyalarının təzahürüdür. Cənab İlham Əliyevin 2003-cü ildə prezidentlik fəaliyyətinə başlaması Azərbaycanın tərəqqi və inkişaf yolu ilə irəliləməsində yeni mərhələ olmuşdur.***

Həmin il müstəqilliyimizin daha da möhkəmləndirilməsi, ölkədə sabit siyasi sistemin, çoxukladlı iqtisadi strukturun intensiv formalaşması ili oldu. Məhz o vaxtdan başlayaraq respublikada demokratikləşmə prosesləri genişlənmiş, ölkəmizin dünya transformasiya proseslərinə inteqrasiyası daha intensiv xarakter kəsb etmiş, milli iqtisadiyyatın daha da inkişafı üçün mühüm sosial-siyasi baza yaranmışdır. Heydər Əliyevin siyasət məktəbinin layiqli yetirməsi olan İlham Əliyevin böyük siyasətdə atdığı inamlı addımlar nəticəsində Azərbaycanda təkcə sosial-iqtisadi sistemdə deyil, həm də siyasi və ictimai təsisatlarda əsaslı yeniləşmələr olmuş, səmərəli intensiv islahatlar aparılmışdır. Həm 2008, həm də 2013-cü illərdə Azərbaycanda keçirilən prezident seçkilərinə xalqın, milli elitanın və beynəlxalq müşahidəçilərin verdiyi yüksək qiymət deyilənləri bir daha sübut edir. Prezident İlham Əliyev demişdir: "Bizim təcrübəmiz onu göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur. İqtisadi, siyasi və sosial islahatların paralel şəkildə aparılması Azərbaycanı hərtərəfli inkişaf etdirir, ölkəmiz üçün çox lazım olan sabitliyi möhkəmləndirir, ictmai-siyasi vəziyyətə müsbət təsir göstərir. Ona görə də siyasi və iqtisadi islahatların davam etdirilməsi zamanın tələbidir. Əgər biz doğrudan da müasir, güclü ölkə yaratmaq istəyiriksə, bunu etməliyik. Bu işdə dövlətin üzərinə böyük vəzifələr düşür. Biz buna birlikdə nail olmalıyıq".

Ulu Öndərin xalqımızın, cəmiyyətimizin milli inkişafına yönəlmiş müstəqillik konsepsiyasını yaradıcılıqla davam və inkişaf etdirən Prezident İlham Əliyevin milli inkişaf konsepsiyasının başlıca qayəsi ölkədə demokratik transformasiya proseslərini yaxın müddətdə başa çatdırmaq, vətəndaş cəmiyyəti strukturlarının və təsisatlarının formalaşmasına başlamaq səyləri ilə həyata keçirilən "sabitlikdən inkişafa doğru" ideyasıdır. Ölkə Prezidentinin əzmkar fəaliyyətini qeyd edərkən Ulu Öndərin bu müdrik sözləri yada düşür: "Sizi əmin edirəm ki, Azərbaycan xalqı indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin, Azərbaycan xalqının milli azadlığının keşiyində duracaq və bu müstəqilliyi cəsarətlə qoruyub saxlayacaqdır". Hər bir Azərbaycan vətəndaşının bu ideyaya inamı sonsuzdur.



*Trend -ə istinadən YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzovun məqaləsini təqdim edirik:*

Dövlət başçısı cənab İlham Əliyev Azərbaycanın sosial-iqtisadi inkişafına paralel gedən demokratikləşmə proseslərini bir-birindən təcrid olunmuş şəkildə götürmədən hər iki xətti Azərbaycanın gələcək yüksəlişinin vahid istinad nöqtəsi kimi əsaslandırır. Prezidentin bu barədə irəli sürdüyü fikirlər təkcə Azərbaycanın yox, ümumilikdə demokratiya yoluna yenicə qədəm qoymuş bütün müstəqil ölkələrin gələcək inkişafının təməl prinsipi kimi tətbiq edilə bilər. "Ölkədə həm siyasi, həm də iqtisadi sahədə islahatlar cəsarətlə aparılır. Mən tam əminəm ki, siyasi və iqtisadi islahatlar, iqtisadi yüksəliş və demokratikləşmə prosesləri bir-birini tamamlamalıdır və paralel şəkildə həyata keçirilməlidir. Əks təqdirdə, iqtisadi durum yaxşılaşmasa, bizim iqtisadi planlarımız həyata keçməsə, təbii ki, Azərbaycanda tam şəkildə demokratik cəmiyyətin qurulmasından söhbət gedə bilməz", - deyən Prezident İlham Əliyev haqlı olaraq bəyan edir ki, hər hansı ölkənin inkişafı heç də təbii sərvətlərin zənginliyi ilə deyil, demokratikləşmə proseslərindən, qanunun aliliyinin qorunmasından, vətəndaş cəmiyyəti təsisatlarının inkişafından asılıdır.

Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev son illərdə cəmiyyətin hüquq sisteminin əsasını təşkil edən milli qanunvericiliyin təkmilləşdirilməsi prosesini diqqət mərkəzində saxlamışdır. Məhkəmə, ədliyyə, polis və prokurorluq orqanlarının daha səmərəli fəaliyyətinə, habelə insan hüquqlarının etibarlı təminatına yönəlmiş yeni qanun və qərarlar qəbul edilmişdir. Yuxarıda da qeyd etdiyimiz kimi, xüsusilə, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 16-da Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərlə əlaqədar keçirilmiş referendumlar xalqın suveren hüququnu və azad siyasi iradəsini ifadə etməsinə maksimum imkan yaratmaqla demokratikləşmə prosesində keyfiyyətcə yeni mərhələnin əsasını qoymuşdur. Ümumxalq səsvermələrinin seçicilər tərəfindən ciddi şəkildə dəstəklənməsi və pozitiv nəticələrlə yekunlaşması isə ilk növbədə cəmiyyətin Heydər Əliyev ideallarına sədaqətinin, eləcə də ulu öndərin böyük uzaqgörənliklə müəyyənləşdirdiyi strateji inkişaf kursunu layiqincə davam etdirən cənab İlham Əliyevə sarsılmaz inamının bariz təcəssümüdür.

Dərin və universal böhrandan çıxaraq cəmi 20 il ərzində kosmik dövlətlər sırasına girən, dünyanın ən mötəbər beynəlxalq forumlarına ev sahibliyi edən, qlobal kataklizmlərlə çalxalanan regionda multikulturalizmin qalasına çevrilən, sosial-iqtisadi və hərbi cəhətdən gündən-günə inkişaf edən müstəqil Azərbaycan bu gün hamımızın qürur mənbəyidir. Sadəcə son üç ayda baş verənlər bugünkü Azərbaycan reallığının ən bariz nümunəsidir. Belə ki, 2017-ci ilin 14 sentyabr tarixində "Əsrin müqaviləsi"nin 2050-ci ilədək uzadılması ölkəmizin etibarlı və stabil inkişaf edən dövlət kimi bütün dünyada hüfuzunun yüksəlməsi, əhalimizin rifahının təminatı baxımından böyük strateji əhəmiyyət daşıyır. Habelə, cari ilin 30 oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılması Azərbaycanın Avrasiyanın geosiyasi nəqliyyat mərkəzinə çevrilməsi yolunda atılmış ən mühüm addımdır.




*"Bizim təcrübəmiz onu göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur. İqtisadi, siyasi və sosial islahatların paralel şəkildə aparılması Azərbaycanı hərtərəfli inkişaf etdirir, ölkəmiz üçün çox lazım olan sabitliyi möhkəmləndirir, ictmai-siyasi vəziyyətə müsbət təsir göstərir"*

Ardı Səh. 6

# İlham Əliyev - uğurlu lider, düşünülmüş strategiya

Əvvəli-Səh-5



Milyondan artıq sərnişin, 17 milyon tondan artıq yük daşınması nəzərdə tutulan bu xətt həm də təcavüzkar Ermənistanın strateji blokadasını möhkəmləndirən mühüm iqtisadi-siyasi qələbədir.

Ümumilikdə, Avropa-Qafqaz-Asiya "Orta Dəhliz"inin mühüm halqasi olan Bakı-Tbilisi-Qars dəmir yolu Avropa və Asiya ölkələri arasında ticarətin daha sürətli və daha əlverişli olmasına şərait yaratmaqla yanaşı, regiondakı bütün ölkələrin hərtərəfli iqtisadi inkişafına güclü təkan verəcək, regionun dünyada əhəmiyyətini daha da artıracaqdır. BTQ Avropa ilə Asiya arasında daşımalarda yekun bənd olaraq həm siyasi, həm iqtisadi, həm də strateji baxımdan böyük əhəmiyyət daşıyır və bu coğrafiyadakı xalqlar bundan sonra da uzun illər ərzində bu qlobal layihədən faydalanacaq, gələcək nəsillər onun bəhrəsini görəcəklər. Beləliklə, BTQ polad reyslərlə sadəcə qitələri birləşdirmir, eyni zamanda, Avrasiya xalqlarının dostluq və mehriban qonşuluq münasibətlərini daha da möhkəmləndirir.

Bu gün dünyada milli və dini zəmində baş verən qarşıdurmalar, axan nahaq qanlar, insanların bu münaqişələr ucbatından öz yurd-yuvasından didərgin düşməsi hamını, eləcə də bəşəriyyətin bir parçası olan xalqımızı narahat etməyə bilməz. O səbəbdən zərurət var ki, sahib olduğumuz tolerantlıq təcrübəmizi və multikulturalizm dəyərini bütün xalqlara aşılayaq və bu yolla dünyada sülhün və əmin-amanlığın bərqərar olmasına öz töhfəmizi verək. Məhz bu missiyanı həyata keçirmək məqsədilə ölkə başçısı cənab İlham Əliyev 2016-cı ili multukulturalizm, 2017-ci ili isə İslam həmrəyliyi ili elan etmiş, bu istiqamətdə ölkə daxilində və xaricdə məqsədyönlü işlərin aparılması üçün müvafiq göstərişlərini vermişdir. Eyni zamanda, bu sahədə respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fədakar fəaliyyəti xüsusilə qeyd edilməlidir. Məhz onun rəhbərliyi ilə ardıcıl şəkildə sivilizasiyalararası dialoqun qurulması sahəsində dünyanın tanınmış elm və mədəniyyət xadimlərinin də iştirak etdiyi bir sıra mötəbər tədbirlərin, konfransların və beynəlxalq forumların Azərbaycanda keçirilməsinə nail olunmuşdur. Onların bir neçəsini xatırlatmaq yerinə düşərdi. 2007-ci ildə keçirilən "Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və prespektivlər" mövzusunda beynəlxalq konfransı, 2009-cu ildə keçirilən "Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru" mövzusunda beynəlxalq konfransı, 2008-ci ildə keçirilən "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda konfransı, 2009-cu ildə keçirilən "Sivilizasiyalararası dialoq: Azərbaycandan baxış" mövzusunda konfransı, 2010-cu ildə keçirilən Dünya Dini Liderlərin Bakı Sammiti, 2011-ci ildə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, 2017-ci ildə keçirilən "Dövlət və din: qloballaşan dünyada tolerantlığın gücləndirilməsi" mövzusunda II Beynəlxalq Bakı Forumu və digər tədbirlər öz miqyas və əhəmiyyətinə görə, regional və qlobal əhəmiyyətli layihələrdir.

Yuxarıda sadalanan fikirlərdən bir daha aydın olur ki, dövrümüzün mühüm çağırışlarından olan multikulturalizmin Azərbaycanda tarixən formalaşmış zəngin ənənələri və möhkəm ictimai dayaqları mövcuddur. Qarşıda duran vəzifə bu hərtərəfli potensialı Azərbaycan dövlətçiliyinin inkişaf və tərəqqisinin vacib elementinə çevirmək, sahib olduğumuz təcrübəni regional və qlobal məkanda uğurla paylaşmaqdır.

Bu gün Azərbaycan dövlətçiliyinin ən mühüm problemi ölkənin ərazi bütövlüyünün təmin olunmasıdır. Ermənistann təcavüzü nəticəsində işğal altına düşmüş ərazilərimizin azad edilməsi, viran qoyulmuş kənd, rayon və şəhərlərimizin bərpa olunması, sayı bir milyona çatan və uzun müddətdən bəri məşəqqətli köçkün həyatı sürən soydaşlarımızın doğma yurd-yuvalarına qayıtması Azərbaycan dövlətinin qarşısında çox məsul bir vəzifə, ən vacib məqsəd kimi durur. Müstəqil dövlətçiliyimizin banisi, müasir Azərbaycanın memarı, böyük öndərimiz Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən möhtərəm Prezident İlham Əliyev xalqımıza hədsiz məhrumiyyətlər, müstəqil dövlətimizə böyük itkilər gətirmiş təcavüzə son qoyulması üçün çoxşaxəli və səmərəli hüquqi-diplomatik addımlar atır. Bütün bunların nəticəsidir ki, indi dünya birliyi Azərbaycanın haqlı olduğunu, Ermənistanın işğalçı və təcavüzkar siyasət yeritdiyini getdikcə daha yaxşı anlayır. Təsadüfi deyil ki, bir çox mötəbər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən qərar və qətnamələrdə Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktı birmənalı şəkildə dəfələrlə təsdiqlənmiş, onun təcavüzkarlıqdan əl çəkməsi tələb olunmuşdur.

Ölkəmizin aparıcı siyasi qüvvəsi olan, milli maraqların müdafiəsi və təmin edilməsi istiqamətində uğurla fəaliyyət göstərən Yeni Azərbaycan Partiyasının (YAP) yaranmasından 25 il ötür. Cənubi Qafqazın ən böyük partiyası olan YAP ötən müddət ərzində Azərbaycanın müasir və dinamik inkişaf edən ölkə kimi nüfuzunun daim artmasında mühüm rol oynamışdır. Bu möhtəşəm proses indi də davam edir. Prezident İlham Əliyevin rəhbərliyi altında YAP milli maraqların ifadəçisi kimi, Azərbaycanın hərtərəfli inkişafına öz töhfəsini verir, hər bir vətəndaşın siyasi və iqtisadi iradəsinin ən yüksək formada təmin olunmasına şərait yaradır. Bu gün əminliklə demək olar ki, yaradıcısı ümummilli lider olan YAP-ın fəaliyyətində Heydər Əliyevin ideya və arzuları ən ali səviyyədə həyata keçirilir.

Proqramında müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, vətənçilik, varislik, yaradıcı təkamül, konstruktiv əməkdaşlıq, vətəndaş həmrəyliyi, sosial ədalət prinsiplərini rəhbər tutan YAP-ın cəmiyyətdə rolu və nüfuzu durmadan artır, ölkədə baş verən ictimai-siyasi proseslərə təsir imkanları getdikcə genişlənir. Bütün bu amillər heç şübhəsiz, partiyaya üzv axınını sürətləndirir. Belə ki, ötən dövr ərzində partiyanın sıraları kəmiyyətcə artmış, keyfiyyətcə yüksəlmişdir. Hazırda YAP-ın 701 mindən artıq üzvü var ki, onlar da cəmiyyətin ən müxtəlif sosial və demoqrafik qruplarını təmsil edirlər. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Yeni Azərbaycan Partiyası Azərbaycanın müasir tarixində böyük bir fenomendir. Bir daha demək istəyirəm ki, çətin şəraitdə, təzyiqlərlə, hədə-qorxularla üzləşərək, bütün məhrumiyyətlərlə üzləşərək, həm partiya üçün, həm partiya fəalları, həm də ölkə üçün demək olar, ən ağır dönəmdə yaranan bu partiya möhkəmləndi, gücləndi və bu gün bölgədə onun analoqu yoxdur. Nəinki Azərbaycanda, qonşu ölkələrdə də Yeni Azərbaycan Partiyası kimi güclü, mütəşəkkil qüvvə yoxdur".

Beləliklə, sadalanan məqamlar bir daha onu sübut edir ki, bu gün insan hüquq və azadlıqlarına, qanunların aliliyinə hörmət prinsiplərinə prioritet istiqamət kimi müstəsna dəyər verən müstəqil Azərbaycanın iqtisadi cəhətdən inkişaf etmiş, hüquqi, dünyəvi və demokratik dövlət imicinin formalaşmasında, onun möhkəm təməllərinin qoyulmasında görkəmli dövlət xadimi Prezident İlham Əliyevin xidmətləri əvəzsizdir və daim tariximizə qızıl hərflərlə yazılacaqdır.



## Dövlət Komitəsində görüş olub

***Dünən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı ABŞ-dakı Simon Vizental Mərkəzinin rəhbərinin müavini ravvin Abraham Kuper ilə görüşüb. SİA-nın verdiyi məlumata görə, qonağı salamlayan Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Abraham Kuper və onun təmsil etdiyi mərkəzin Azərbaycan həqiqətlərinin təbliğində fəal rol oynadıqlarını diqqətə çatdırıb. Dekabrın 21-i Bakıda keçirilən "2017 - İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda konfransda da yaxından və fəal iştiraka görə təşəkkürünü bildirib.***

Mübariz Qurbanlı öz əhəmiyyətinə görə xüsusi diqqət çəkən konfransın Prezidentimiz cənab İlham Əliyevin təşəbbüsü ilə növbəti ildə də təşkil ediləcəyini qeyd edib. O, dinlər və mədəniyyətlərarası dialoqun davam etdirilməsinin zəruriliyinin nəzərə alındığını və bu prosesin davam etdirilməsi üçün Koordinasiya Şurasının yaradılacağını vurğulayıb. Şuraya yəhudi icmalarının da üzv olacaqlarına və fəal iştirak edəcəklərinə ümidvar olduğunu qeyd edib.

Abraham Kuper bu cür mühüm konfransa dəvət üçün təşəkkürünü bildirib. Konfransın əhəmiyyətinə toxunan qonaq Azərbaycanda mövcud olan dini dözümlülük və tolerantlığın, dinə münasibətin ölkələr tərəfindən nümunəvi model kimi qəbul olunduğunu və bəyənildiyini vurğulayıb. Səmimi şəraitdə keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

## Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru və Himayəçilər Şurasının üzvləri təyin edilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ilin oktyabr ayının 10-da ölkədə mövcud dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin qorunmasını və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədi ilə imzaladığı Fərmana əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılmış Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru və Himayəçilər Şurasının üzvləri təyin edilib.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının imzaladığı əmrə əsasən, ilahiyyat elmləri üzrə fəlsəfə doktoru Mehman Qurban oğlu İsmayılov icraçı direktor vəzifəsinə təyin edilib. M.Q.İsmayılov indiyədək Dövlət Komitəsinin Zaqatala bölgəsi üzrə şöbəsinin müdiri vəzifəsində çalışıb.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini, müfti Salman Musa oğlu Musayev Fondun Himayəçilər Şurasının sədri, üzvlüyünə isə Azərbaycan Respublikası Milli Məclisinin deputatı Sahibə Əli qızı Qafarova, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aynur Məmmədiyyə qızı Sofiyeva, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru və AMEA-nın Humanitar elmlər bölməsinin akademik katibi Teymur Həşim oğlu Kərimli və "Səs" Media Qrupunun rəhbəri Bəhruz Vaqif oğlu Quliyev təyin ediliblər.

**RÖVŞƏN**

# Təşəkkürlər, Paraqvay!

*Bu Cənubi Amerika ölkəsi Xocalı soyqırımını tanımaqla, Azərbaycanın haqq və ədalət çarğırışlarına səs verib*


HONORABLE CÁMARA DE DIPUTADOS

Buscar...

Inicio | Noticias | Institución | Sesiones | Legislación | Agenda | Transparencia HCD | Webmail | Contacto | Intranet HCD

Mociones de Tratamiento sobre Tablas

Inicio / Noticias / Pagina actual

Publicado: 10/25/17 05:38:p. m.

En este bloque fueron aprobados dos proyectos de declaración a petición de dos parlamentarios. El primero condena el genocidio con el pueblo de Jodialy de Nagorno-Karabaj y, mientras que el segundo declara de interés nacional el proyecto Comunitario de Audiovisuales.

Solidaridad con Jodialy de Nagorno-Karabaj por aniversario de genocidio

Diputado Juan Bartolomé Ramírez (PLRA-Amambay)

Por medio de un proyecto de Declaración, se condena el genocidio ocurrido con el pueblo Jodialy de Nagorno-Karabaj, perpetrado en el año 1992 y manifiesta su solidaridad con la República de Azerbaiyan en ocasión de la conmemoración del 26° aniversario de ese crimen de lesa humanidad.

Proyecto Comunitario de Audiovisuales de interés nacional

Diputado Celso Troche (ANR-Caazapá)

Se declara de interés nacional el proyecto Comunitario de Audiovisuales para jóvenes de la Parroquia San Miguel Arcángel – Decanato 8° - Barrio San Miguel de San Lorenzo, cuyo objetivo apunta a la formación de ideas y criterios morales positivos en los jóvenes de nuestra sociedad, para la constante creación de materiales audiovisuales, para ser utilizados en la formación de estudiantes, cadetes, profesionales y sociales de todo el país.

Erməni hərbi birləşmələrinin Rusiyanın 366-cı motoatıcı alayı ilə birlikdə törətdikləri Xocalı soyqırımından 26 ilə yaxın vaxt ötür. Artıq iki aydan bir az artıq müddətdən sonra, bu insanlıq faciəsinin 26-cı ili tarixin qanlı səhifəsinə yazılacaq. Ötən illər ərzində Xocalı soyqırımının tanıdılması üçün Azərbaycan dövləti kifayət qədər işlər görüb və dünyanın bir çox ölkə və təşkilatları hadisəni soyqırımı kimi tanıyıb. Belə ki, bu günə qədər Xocalı soyqırımını tanıyan ölkələr və təşkilatlar bunlardır: Meksika (02.02.2012-ci il tarixində Meksika Senatı Xocalı faciəsini soyqırımı adlandırıb), Pakistan (Soyqırımını pisləyən qətnamə qəbul edib), Kolumbiya (24.04.2012-ci il tarixində Kolumbiya Parlamenti hadisəni soyqırımı kimi tanıyıb), Çexiya (19.02.2013-cü il tarixində Çexiya Parlamenti Xocalı soyqırımını rəsmən tanıyıb), Bosniya və Herseqovina (26.02.2013-cü il tarixində Bosniya və Herseqovina parlamenti Xocalı soyqırımını rəsmən tanıyıb), Peru - (2013), Honduras - (2014), ABŞ-ın Massaçusets ştatı (25.02.2010-cu il fevralın 25-də Massaçusets ştatının nümayəndələr palatası Xocalıda qırğın törədilməsi faktının tanınması haqqında qətnamə qəbul edib), Texas ştatı - (2011), Nyu-Cersi ştatı - (2011), Corciya ştatı - (2012), Men ştatı - (2012), Nyu-Meksika ştatı - (2013), Arkanzas ştatı - (2013), Missisipi ştatı - (2013), Oklahoma ştatı - (2013), Tennessi ştatı - (2013), Pensilvaniya ştatı - (2013), Qərbi Virciniya ştatı - (2013), Konnektikut ştatı - (2013), Florida ştatı - (2013), İndiana ştatı - (2014), İslam Əməkdaşlıq Təşkilatı - (2012), Arizona Ştatı - (2015, 25 fevral). Yuta ştatı - (2015), Nebraska ştatı-(2016), Havay ştatının - (2016), Montana ştatı - (2016), Aydaho ştatı - (2016).

Bu ilin yanvar ayında isə Cibutinin Milli Assambleyası (Parlamenti) plenar iclasında mütləq səs çoxluğu ilə Xocalı soyqırımına dair qətnamə qəbul edib. Xocalı soyqırımının tanıdılması istiqamətində dövlətimiz, bilavasitə, Prezident İlham Əliyevin qətiyyəti xüsusi rol oynayır. O cümlədən, Heydər Əliyev Fondu başda olmaqla, bir sıra nüfuzlu ictimai təşkilatlarımız tərəfindən də mühüm təşəbbüslər irəli sürülüb və çoxsaylı tədbirlər reallaşdırılıb. Ona görə də, qeyd etmək olar ki, əldə edilən uğurlar da, məhz bu əməli işlərin nəticəsidir.

Növbəti uğur kimi isə, biz Cənubi Amerika ölkəsi olan Paraqvay parlamentinin Xocalı soyqırımını rəsmən tanımasını göstərə bilərik. Artıq Paraqvayın Deputatlar Palatası 1992-ci ildə Azərbaycanın Dağlıq Qarabağ regionunun Xocalı şəhərində törədilmiş soyqırımının pislənilməsi və 26-cı ildönümünün anılması münasibətilə həmrəyliyin ifadə edilməsi barədə bəyanat qəbul edib. Bəyanatda qeyd edilir ki, Xocalı qətliamı Ermənistan və Azərbaycan arasındakı münaqişənin hərbi fazasının üç ili ərzində mülki əhalinin məruz qaldığı ən böyük hücum olub, nəticədə, etnik xarakterli səbəblərə görə 63 uşaq, 106 qadın və 70 yaşlı insan olmaqla 613 azərbaycanlı qətlə yetirilib, 1275 sakin əsir düşüb, onlardan 150 nəfərinin taleyi hələ də məlum deyil; bundan əlavə, 76-sı uşaq olmaqla, 487 nəfər Xocalı sakini şikəst edilib, 26 uşaq hər iki valideynini və 130 uşaq isə valideynlərindən birini itirib. Bu faktın Azərbaycanın müxtəlif qurumları və müstəqil mənbələr tərəfindən tam sənədləşdirildiyi qeyd olunub.

Sənəddə bir sıra dövlətlərin Ermənistanın silahlı qüvvələri tərəfindən Azərbaycanın mülki əhalisinə qarşı törədilmiş bu soyqırımı və insanlıq əleyhinə cinayəti pislədiyi, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən silahlı işğalının qınanıldığı, həmçinin, Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət ifadə etdikləri vurğulanıb. Bəyanatda BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilmiş 822, 853, 874 və 884 nömrəli Qətnamələr təcavüzün dayandırılmasını, diqqətin qurbanlara yönəldilməsini və Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində yaranmış münaqişənin həlli yolu kimi dialoqu təşviq etdiyi bildirilir.

Deputatlar Palatası qeyd olunanları və beynəlxalq humanitar hüququn əsas prinsip və normalarına hörmət edilmədiyini əsas tutaraq, 1992-ci ildə Azərbaycanın Dağlıq Qarabağ regionunun Xocalı şəhərində törədilmiş soyqırımını pislədiyini və bu insanlıq əlyehinə cinayətin 26-cı ildönümünün anılması münasibətilə Azərbaycan xalqına öz həmrəyliyini ifadə etdiyini bəyan edib. Beləliklə, Azərbaycanın haqq səsinə və çağırışlarına ədalətli yanaşma edən və erməni vəhşiliyinə "dur" deyəcək daha bir dost ölkə beynəlxalq aləmdəki dəstəyini göstərmiş oldu. Təşəkkürlər, Paraqvay!

**Rövşən NURƏDDİNOĞLU**



# Dövlət qeydiyyatına alınmış dini icmalara şəhadətnamələr təqdim edilib

***Dünən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınmış 9 dini icmaya şəhadətnamələr təqdim edilib. Tədbirdə Prezident İlham Əliyev tərəfindən ölkəmizdə elan edilən "İslam Həmrəyliyi İli"nin əhəmiyyətinə toxunan Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov bu müdrik və düşünülmüş addımın istər ölkəmiz baxımından, istərsə də dünya miqyasında strateji əhəmiyyətə malik olduğunu bildirib. Bunun dünən Bakıda keçirilən beynəlxalq konfransda da bir daha öz təsdiqini tapdığını vurğulayıb.***

"İslam Həmrəyliyi İli"nin elan olunmasının həm daxili, həm də beynəlxalq-ümumbəşəri çağırışları ehtiva etdiyini deyən Səyavuş Heydərov tarixən islam dünyasının bir parçasına çevrilmiş ölkəmizin bununla öz milli-mənəvi dəyərlərinə sadiqliyini bir daha nümayiş etdirdiyini vurğulayıb.

Dini icma sədrlərinə tövsiyələrini də verən sədr müavini onları cəmiyyətin dini baxımdan düzgün maarifləndirilməsi, milli-mənəvi dəyərlərimizin təbliğ və təşviq edilməsində, eyni zamanda, tolerant və multikultural mühitin daha da inkişaf etdirilməsində fəal rol oynamağa, yeni təşəbbüslərlə çıxış etməyə çağırıb. Sonda icma sədrlərinə qeydiyyat şəhadətnamələri təqdim edilib.

**R.RƏSULOV**

# Nizami rayonunda 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü qeyd edilib

Nizami rayon icra hakimiyyəti və Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatı birgə 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə tədbir keçirib. Tədbirdə çıxış edən YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib ki, 1990-1993-cü illərdə Naxçıvandan başlanan Heydər Əliyev xilaskarlıq missiyasının əsas qayəsini xalqımızın vahid ideologiya ətrafında birləşməsi təşkil edirdi. Məhz buna görə də 1991-ci il dekabrın 16-da Ümummilli Liderimizin rəhbərliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında "31 Dekabr - Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərar qəbul olunub. Tədbirdə çıxış edən YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq missiyası, o cümlədən, Ulu Öndərin dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq istiqamətində apardığı siyasətin və qəbul etdiyi tarixi qərarların uğurlu nəticələri barədə ətraflı məlumat verib. Qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin tarixi qərarı ilə həyata vəsiqə qazanan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü Azərbaycan xalqının mənəvi birliyini özündə ehtiva edir, eləcə də dünyanın müxtəlif guşələrində məskunlaşan soydaşlarımızın birliyinin möhkəmləndirilməsi istiqamətində atılmış ən dəyərli addım kimi özünü doğruldub. Nizami rayon icra hakimiyyətinin başçısı Arif Qasımov bildirib ki, Ulu Öndər 1993-cü ildə ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra azərbaycançılığı, nəinki dövlətçilik konsepsiyasına, hətta bütün dünyada yaşayan azərbaycanlıların ümummilli ideologiyası səviyyəsinə yüksəldib. Ümummilli Liderimiz 2001-ci il mayın 23-də "Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında" Sərəncam imzalayıb və həmin ilin noyabr ayının 9-10-da Bakıda Dünya Azərbaycanlılarının ilk



qurultayı keçirilib. Məhz bundan sonra dünyada yaşayan azərbaycanlıların təşkilatlanması üçün yeni şərait yaranıb: "Ulu Öndərimizin müəllifi olduğu azərbaycançılıq ideologiyası özündə ümumbəşəri səciyyə daşıyan və milli dəyərlərə cavab verən prinsipləri ehtiva etməklə, milli həmrəyliyi təmin edən milli-mənəvi mexanizmdir. Azərbaycançılıq təkcə ölkəmizdə yaşayan insanları deyil, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edərək, güclü milli istinad mənbəyinə, dövlətçilik məfkurəsinə, milli inkişafın praktik modelinə çevrilib. Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında dünya azərbaycanlılarının təşkilatlanması sahəsində son dərəcə uğurlu nəticələr əldə olunub. Hər il dekabrın



31-də azərbaycanlıların yaşadığı bir çox xarici ölkələrdə Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün bayram kimi geniş qeyd edilməsi də, bu siyasətin və milli həmrəyliyin nəticəsidir". Digər çıxışlarda Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün önəmindən və qarşıya qoyduğu vəzifələrdən bəhs olunub. Qeyd olunub ki, bütün dünyada azərbaycançılıq ideologiyası ilə yaşayan hər kəs bu günü qürurla qeyd edir. Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının 25 illik yubileyi münasibətilə Nizami rayon icra hakimiyyətinin, YAP Nizami rayon təşkilatının və Nizami Rayon Sosial-İctimai Maarifləndirmə İctimai Birliyinin birgə təşkilatçılığı, "İki sahil" qəzetinin dəstəyi ilə "Yeni Azərbaycan Partiyası müasir Azərbaycanın inkişaf tarixinin bələdçisidir" mövzusunda keçirilən rəsm və inşa müsabiqəsinin qaliblləri mükafatlandırılıb. Həmçinin, rayon təşkilatının ictimai-siyasi həyatında aktiv iştirak etmiş üzvlərə fəxri fərmanlar və gənclərin siyasi-ideoloji maarifləndirilməsində fərqlənmiş fəallara sertifikatlar verilib.

**ZÜMRÜD**

# İLHAM ƏLİYEV - XALQIN MARAQLARINDAN ÇIXIŞ EDƏN XARİZMATİK LİDER!

## *Azərbaycan xalqının tam əksəriyyəti öz Liderini dəstəkləyir!*



***Müstəqil və demokratik Azərbaycanın strateji prioritetlərinin reallaşdırılması, daxili və xarici siyasətin müəyyənləşdirilməsi, bütövlükdə isə ölkəmizin dinamik inkişafının təmin edilməsi, cəmiyyətimizin qarşısında duran vəzifələrin həyata keçirilməsi baxımından 2017-ci ildə baş verən hadisələrin əhəmiyyəti olduqca böyükdür. Belə ki, cari il ərzində də Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dinamik inkişaf edən, demokratik, sosial-iqtisadi sahədə böyük nailiyyətlər qazanıb, yüksək beynəlxalq nüfuza malik ölkə olaraq, dünya miqyasında qətiyyətli mövqeyi ilə seçilən dövlətlər sırasında öz yerini möhkəmləndirib. Ümumiyyətlə, dövlət başçımızın istər 14 illik, istərsə də son bir ildəki fəaliyyət istiqamətinin təhlilini apararkən, biz növbəti dəfə əmin oluruq ki, Azərbaycan Cənubi Qafqaz regionunun siyasi və iqtisadi, humanitar mərkəzi statusunu möhkəmləndirməklə yanaşı, qlobal problemlərin həllində və beynəlxalq münasibətlər sistemini tənzimləyən qərarların qəbulunda ciddi rol oynayan ölkə olaraq qiymətləndirilir. Ölkəmiz iqtisadiyyat, ordu quruculuğu, daxili və xarici siyasət, sosial siyasət, mədəniyyət, idman sahəsinin inkişafı və s. sahələrin hər birində kifayət qədər böyük nailiyyətlər, ardıcıl uğurlar əldə edib. Bütün bunlar bilavasitə ölkə rəhbərimiz, Prezident İlham Əliyevin müdrik siyasətinin məntiqi nəticəsidir. Apardığımız təhlillər də, məhz belə deməyə əsas verir.***

### 2003-cü ildən hazırkı dövrə qədər keçirilən bütün sosioloji sorğular Azərbaycan Prezidenti İlham Əliyevin yüksələn reytinqini təsdiq edir

Əhəmiyyətli məqam olaraq, bir faktoru vurğulamaq yerinə düşərdi ki, başa çatmaqda olan bu ilin spesifik cəhəti, həm də ondan ibarətdir ki, Azərbaycan xalqı əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi siyasi kursun davamına birmənalı dəstəyini göstərməkdədir. İlk növbədə, bu gün heç bir post-sovet məkanında Azərbaycanda olduğu qədər xalq-dövlət vəhdətinin, sarsılmaz birliyinin olmadığını, xüsusilə qeyd etməliyik. Artıq bu amil özünü daha öncə keçirilmiş prezident seçkilərində kifayət qədər təsdiq edib. Əbəs yerə deyil ki, bütün seçki ərəfələrində Azərbaycan cəmiyyətində ölkənin gələcəyi, onun strateji inkişaf kursu ilə bağlı ciddi fikir ayrılığının olmadığı məhz xalqın rəyi əsasında sübuta yetirilib. Həmçinin, istər yerli, istərsə də xarici ekspertlər, politoloqlar, müxtəlif nüfuzlu ictimai-siyasi institutlar, araşdırma və sorğu mərkəzləri dəfələrlə bəyan ediblər ki, Prezident İlham Əliyev şəksiz lider olaraq, qarşısına qoyduğu bütün vəzifələrin öhdəsindən layiqincə gəlir və xalqına verdiyi bütün vədləri reallaşdırır.

Yeri gəlmişkən, bu günlərdə "ELS-Müstəqil Araşdırmalar Mərkəzi" İctimai Birliyi 2018-ci ildə Azərbaycanda keçiriləcək prezident seçkiləri ilə bağlı ölkədə mövcud ictimai-siyasi durumun qiymətləndirilməsinə dair ekspress rəy sorğusunun nəticələrini bir daha xatırlatmaq istərdim. Təkcə, bu sorğunun nəticələrinin təhlilini apararkən, biz əmin oluruq ki, Azərbaycanda keçirilən siyasət bütün sahələrdə xalqımızın maraqlarının təminatına söykənir. Xalq-iqtidar birliyinin də məntiqi nəticəsi sorğuda müəyyən olunmuş rəqəmlərdə tam şəffaflığı ilə əks edilməkdədir. "ELS-Müstəqil Araşdırmalar Mərkəzi"nin keçirdiyi sorğunun nəticələrinə görə, respondentlərin 92,8 faizi Azərbaycanda ictimai-siyasi vəziyyəti sabit kimi qiymətləndiriblər. Prezident İlham Əliyevin xarici siyasətini dəstəkləyən respondentlər isə 91,4 faiz təşkil edir. Dövlətimizin başçısının daxili siyasətini isə respondentlərin 84,7 faizi dəstəkləyib. O cümlədən, rəyi soruşulanların 62,9 faizi Mehriban Əliyevanın Birinci vitse-prezident təyin olunmasını yüksək qiymətləndirib. Bütövlükdə, sorğuda respondentlərə "Gələn həftə prezident seçkiləri keçiriləcəyi halda, kimə səs verərdiniz" sualı verilib və respondentlərin 85,2 faizi İlham Əliyevə səs verəcəyini qeyd edib.

Digər bir əhəmiyyətli məqam Azərbaycan Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin artan xətlə inkişaf etməsidir. Ölkə başçımızın keçirdiyi siyasətin Azərbaycan xalqının milli maraqlarına xidmət etdiyini və cəmiyyət tərəfindən hərtərəfli dəstək qazandığını isbatlayan və Hollandiyanın ACT LLC humanitar tərəfdaşlıq təşkilatı tərəfindən Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramının sifarişi ilə keçirilən sorğunun nəticələri də, belə qənaətə gəlməyə əsas verir. Bu sorğuya əsasən, Azərbaycan vətəndaşlarının 81%-i hakimiyyətin həyata keçirdiyi siyasətə öz dəstəyini ifadə edib. Bütün bunlar isə, belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, xalqımızın mütləq əksəriyyəti İlham Əliyevin gördüyü işləri bəyənir və Azərbaycan Prezidentinə hər zaman etimad göstərməyə hazırdır.

Xatırlatmaq istərdim ki, daha öncəki seçkilər ərəfəsində də yerli və beynəlxalq təşkilatlar tərəfindən keçirilən rəy sorğuları Prezident İlham Əliyevin şəksiz Lider olduğunu rəsmi olaraq isbatlayıb. Məsələn, 2013-cü ildə Avropa İttifaqının "Avropa Qonşuluq Barometri" çərçivəsində keçirilmiş sorğu göstərdi ki, Azərbaycanda əhalinin 92 faizi öz hökumətinə inanır. Bu, həm də o deməkdir ki, əhalinin mütləq əksəriyyəti İlham Əliyevin gördüyü işləri bəyənir və Azərbaycan Prezidentinə növbəti dəfə etimad göstərməyə hazırdır. Ümumiyyətlə, 2003-cü ildən hazırkı dövrə qədər keçirilmiş bütün obyektiv rəy sorğuları xalqla Cənab İlham Əliyevin sıx birliyini əyani şəkildə nümayiş etdirib. O da təsadüfi deyildi ki, ötən prezident seçkiləri zamanı dünyanın 100-ə yaxın ölkəsini təmsil edən 1200-dən artıq müşahidəçi, nüfuzlu beynəlxalq qurumlar da daxil olmaqla 50-yə yaxın təşkilat seçkilərin tam demokratik, şəffaf, ədalətli keçirildiyini və Cənab İlham Əliyevin layiqli qələbə qazandığını bəyan etmişdilər.

Ümumiyyətlə, 2003-cü ildə Cənab İlham Əliyev dövlət başçısı seçiləndə və sonrakı illərdə dünyanın nüfuzlu təşkilatlarının, sosioloji təhqiqat mərkəzlərinin apardığı rəy sorğularının nəticələri Azərbaycan Prezidentinin reytinqinin ardıcıl şəkildə yüksəldiyini təsdiq etdilər. ABŞ-ın Beynəlxalq Seçki Sistemləri Fondu (İFES) tərəfindən 2006-cı il noyabrın 17-dən dekabrın 20-dək 1400 nəfər şəxs arasında keçirilmiş sorğu göstərdi ki, əhalinin 52 %-i ölkədəki ümumi vəziyyətdən razıdır. Respondentlərin 60 %-i möv-




cud iqtisadi vəziyyətə yaxşı qiymət vermişdilər. Rəy sorğusuna görə, əhalinin 60 %-dən çoxu Azərbaycan Prezidentinə tamamilə, 25 %-dən çoxu isə, hər halda, etibar etdiyini bildirmişdi. Bu isə əhalinin 85%-nin Azərbaycan Prezidentinə olan etimadını əyani şəkildə nümayiş etdirdi.

ABŞ-da yerləşən və dünya üzrə insan resurslarını öyrənən, statistik araşdırma xidmətləri göstərən nüfuzlu "Gallup" təşkilatının 2009-cu il iyulun 31-də keçmiş sovet respublikaları üzrə keçirdiyi sorğusunun nəticələri bir daha Azərbaycan xalqının Prezident İlham Əliyevin fəaliyyətini təqdir etdiyini və dəstəklədiyini göstərdi. "Sizcə, ölkə rəhbərliyi işinin öhdəsindən necə gəlir" sualına cavab olaraq Azərbaycanda rəyi soruşulanların 77 faizi hakimiyyətin fəaliyyətindən razılığını ifadə etmişdi. Bu, post-sovet ölkələri arasında ən yüksək göstərici kimi qeyd olunmuşdu. Müqayisə üçün qeyd edək ki, sorğunun nəticələrinə görə, Gürcüstanda əhalinin 21 faizi, Ukraynada isə cəmi 4 faizi hökumətin işini müsbət qiymətləndirmişdi.

2011-ci ilin son aylarında "Gallup İnternational"in dünyanın 51 ölkəsində apardığı "Qlobal Ümid və Ümidsizlik Barometri" adlı sorğusuna əsasən, Azərbaycan inkişaf etməkdə olan ölkələr qrupu üzrə 51 ölkə içərisində 8-ci yeri tutdu. Sorğunun nəticəsi göstərirdi ki, ölkə əhalisi hazırkı ilə nisbətən növbəti illərdə özünün rifah səviyyəsinin daha da yüksələcəyinə inanır və ölkəmizin inkişafına böyük nikbinliklə baxır. Bu isə, birmənalı şəkildə, Prezident İlham Əliyevin fəaliyyətinə, ölkənin tərəqqisinə, həyata keçirilən nəhəng quruculuq işlərinə əhalinin adekvat reaksiyası idi.

Eləcə də 2013-cü ildə Azərbaycanda keçiriləcək prezident seçkilərində "exit-poll" təşkil edəcək ABŞ-ın "Arthur J. Finkelstein and Associates" (AJF) şirkəti seçkiöncəsi sorğu keçirmişdi. Sorğunun nəticələrinə görə, respondentlərin 86%-i Prezident İlham Əliyevi dəstəkləyib. AJF-in icraçı direktoru Corc Birnbaum sorğunun nəticələrini şərh edərək bildirmişdi: "Biz bu məlumatın dəqiqliyinə əminik... Keyfiyyətli və geniş araşdırma göstərir ki, Azərbaycanın təhlükəsizliyi və daxili məsələlər seçicilər arasında əsas prioritet təşkil edən məsələlərdir. Bu da İlham Əliyevə dəstəkdə özünü göstərir. Seçicilər hesab edir ki, O, ölkəni irəli aparır və onu qorumaqda davam edəcək".

Nəticə etibarilə ortaya bir reallıq çıxır - bütün sorğuların nəticələri göstərir ki, Cənab İlham Əliyevin reytinqi Onun dövlət başçısı postunda fəaliyyətinə paralel şəkildə yüksəlib və bu gün pik həddə çatıb. Cəmiyyət öz Liderini görür, tanıyır, qəbul edir və Ona növbəti dəfə etimad göstərməyə hazırdır.

## Prezident İlham Əliyev növbəti illər üçün də yeni dövlət proqramlarının həyata keçiriləcəyini bəyan edib

Əminliklə demək olar ki, 2017-ci ildə qarşıya qoyulmuş bütün vəzifələr uğurla icra olunub, ölkə iqtisadiyyatının dinamik inkişafı, dövlət proqramlarının, investisiya layihələrinin reallaşdırılması, makroiqtisadi sabitliyin qorunması, əhalinin sosial rifahının yüksəlməsi təmin edilib. Cənab Prezident regionlarımıza çoxsaylı səfərlər edib, xalqla təmasda olub, müxtəlif müəssisələrin açılışında iştirak edərək, bu ənənənin davam etdiriləcəyini vurğulayıb. Ümumiyyətlə, yola saldığımız il ərzində, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində müasir iqtisadi və sosial infrastrukturun yaradılması istiqamətində görülən mühüm işlər davam etdirilib, bölgələrimizin abadlaşdırılması və digər məsələlər uğurla həll olunub. O cümlədən, Prezident İlham Əliyev növbəti illər üçün də yeni dövlət proqramlarının həyata keçiriləcəyini bəyan edib və vurğulayıb ki, onların reallaşdırılması nəticəsində həll olunmamış problem qalmayacaqdır. Aparılan islahatlar və mütərəqqi siyasət də bu təməllərə əsaslanmaqdadır. Çünki Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin başlıca məqsədi Azərbaycan vətəndaşının layiqli həyat şəraitini təmin etməkdən ibarətdir.

Bu baxımdan, Azərbaycan dövləti təşəbbüskar olaraq, bir çox beynəlxalq irimiqyaslı layihələrin həyata keçirilməsini reallaşdırır. Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı, TAP və TANAP kimi nəhəng layihələrin icrası, XXI əsrin yeni müqaviləsini əks etdirən layihənin həyata keçirilməsinə başlanıldı. Belə ki, Azərbaycan neft hasilatında iştirak payını 25%-ə qaldırmış oldu və "Azəri", "Çıraq" və "Günəşli" yatağının birgə işlənməsi layihəsi ölkəmizə yeni dividendlər gətirəcək. Ümumiyyətlə, Azərbaycan 1994-cü ildən iki dəfə sərfəli bir sazişin imzalanmasına nail oldu və bu xüsusda digər çoxsaylı projelərin də həyata keçirilməsi qarşıya məqsəd kimi qoyulub.

Bütövlükdə, Azərbaycanın yaxın qonşuluq siyasətinə sadiq olması ilə yanaşı, sərhədlərimizdən uzaq ölkələrlə də münasibətlərinin inkişafına təkan verməkdədir. Habelə, enerji siyasəti ilə yanaşı, digər strateji hədəf olaraq, qeyri-neft sektorunun inkişafı faktoru da burada vacib məqam kimi nəzərdə tutulub.

Bütün bunları nəzərə alarsaq, Azərbaycanın hərtərəfli inkişafı və iqtisadi potensialının yüksəlməsi həm də ölkəmizin həyata keçirdiyi müstəqil xarici siyasətin uğurlarını şərtləndirən başlıca amillərdən biri olduğunu vurğulaya bilərik.

## Azərbaycan öz müstəqil siyasəti, iqtisadi inkişaf təcrübəsi, mədəni irsi, tolerantlıq nümunəsi, idman sahəsində əldə etdiyi uğurlarla dünyanın diqqətini özünə cəlb etməyi bacarıb

Misal üçün, 2017-ci ildə Azərbaycan həm üzv olduğu beynəlxalq təşkilatlar çərçivəsində öz fəallığı ilə seçilib, həm də çoxtərəfli və ikitərəfli əməkdaşlıq əlaqələrini gücləndirib. Xüsusilə, üçtərəfli formatların yaradılmasında Prezident İlham Əliyevin gördüyü işlər ölçüyəgəlməzdir. Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-Rusiya-İran və s. formatlar nəticəsində ölkəmiz dünya siyasətinin mərkəzinə çevrilib. Əbəs deyil ki, ölkəmizdə bir çox nüfuzlu təşkilatların və qurumların beynəlxalq konfransları baş tutur və Bakının bu kimi məsələlərdə ön planda olmasında ölkə başçımızın böyük nüfuzu xüsusi önəm kəsb etməkdədir.

Bunun nəticəsidir ki, Bakı şəhəri dünya səviyyəli mərkəzlərdən biri kimi qəbul olunur. Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı, müasir cəmiyyət quruculuğu, ölkəmizin daxili və xarici siyasətdə əldə etdiyi böyük uğurlar, irəli sürdüyü qlobal təşəbbüslər, əlbəttə ki, onun dünya birliyi üçün əhəmiyyətini artırır və beynəlxalq aləmdə nüfuzunu yüksəldir. Azərbaycan öz müstəqil siyasəti, iqtisadi inkişaf təcrübəsi, mədəni irsi, tolerantlıq nümunəsi, idman sahəsində əldə etdiyi uğurlarla dünyanın diqqətini özünə cəlb etməyi bacarıb. Ümumiyyətlə, ölkəmizin potensialı və bu illər ərzində qazandığı təcrübə ona istənilən tədbiri layiqli şəkildə təşkil etməyə imkan verir və bu məsələdə özünü dəfələrlə təsdiq edib.

Yeri gəlmişkən, qeyd etmək istərdim ki, dünyanın müxtəlif bölgələrində baş verən xoşagəlməz hadisələr fonunda Azərbaycanda müşahidə olunan dinamik inkişaf, sabitlik, cəmiyyət həyatının ahəngdar ritmi bizim mühüm nailiyyətimizdir. Yuxarıda qeyd edilən fikirlər fonunda Azərbaycanın düşünülmüş, praqmatik müstəqil daxili və xarici siyasəti dövlətimizi və xalqımızı qlobal aləmdə baş verən bütün problemlərdən sığortalayır, milli birliyimizi və həmrəyliyimizi daha da gücləndirir. Demokratik dəyərlərin möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsi, baş verən mənfi halların aradan qaldırılması üçün ardıcıl tədbirlər həyata keçirilir.

Cənab Prezidentin göstərişlərinə əsasən, 2017-ci ildə də Azərbaycanda vətəndaş cəmiyyəti möhkəmlənib, siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyətinə dövlət dəstəyi gücləndirilib. Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu, Gənclər Fondu və digər təsisatlar qarşılarına qoyulan vəzifələri uğurla icra edib, öz səmərəli fəaliyyətləri ilə cəmiyyətdə nüfuzlarını artırıblar. Təkcə cari ildə bu təsisatlara dövlət tərəfindən milyonlarla manat vəsait ayırılıb və bu da təbii ki, həmin sahələrin inkişafına mühüm dəstəkdir. Əlbəttə, dövlət başçısı tərəfindən verilən dəstəyin nəticəsi olaraq, bu qurumlar qarşısında növbəti uğur cığırları açılmaqdadır.

## Dövlətimizin başçısı isə tarixdə ilk dəfə olaraq islam dünyasına siyasi mesaj ünvanladı

Daha bir vacib məqam Prezident İlham Əliyevin artıq yola salmağa hazırlaşdığımız 2017-ci ili Azərbaycanda İslam Həmrəyliyi İli elan etməsi oldu. Ölkə başçımız bu mühüm addımı atmaqla sözügedən məsələyə həm özünün şəxsi, həm də Azərbaycan dövlətinin mövqeyini ifadə etmiş oldu. Belə ki, Azərbaycan tarixlər boyu öz multikultural və tolerantlıq dəyərləri ilə digər dövlətlərdən seçilib. İslam həmrəyliyi də bu kontekstin tərkib hissəsidir. Əbəs deyil ki, İslam Həmrəyliyi İlindən öncəki 2016-cı il Multikulturalizm İli olaraq qəbul olunmuşdu.

İslam Həmrəyliyi İli isə bu faktorun davamı olaraq qiymətləndirildi. Ümumiyyətlə, bu Sərəncam Prezident İlham Əliyevin islam dünyasının həmrəyliyinə böyük önəm verdiyini göstərir. Təhlilçilərin diqqətə çatdırdığı kimi, indiyədək müsəlman ölkələrini din ətrafında birləşməyə çağıran müəyyən təşəbbüslər göstərilib. Dövlətimizin başçısı isə, tarixdə ilk dəfə olaraq, islam dünyasına siyasi mesaj ünvanladı, vahid mövqedən çıxış etməyin, birliyə nail olmağın, eyni zamanda, dünyaya inteqrasiyanın vacibliyinə işarə etdi.

Beləliklə, 2017-ci il Azərbaycanda həm də IV İslam Həmrəyliyi Oyunları ilə yadda qaldı. Bu, çox önəmli beynəlxalq tədbirə Azərbaycan ev sahibliyi etdi. Xatırladım ki, Azərbaycan 2015-ci ildə də ilk dəfə I Avropa Oyunlarını uğurla keçirdi. Yəni bir ölkədə, bir şəhərdə iki il ərzində həm Avropa Oyunları keçirildi, həm də İslam Həmrəyliyi Oyunları baş tutdu. İslam Oyunları isə təkcə idman tədbirləri deyildi, həm də siyasi və mədəni tədbir idi. Bunun önəminə diqqətçəkən Cənab İlham Əliyev də vurğuladı ki, bu, bir daha Azərbaycanın müstəqil, öz dəyərlərinə, islam dəyərlərinə sadiq ölkə kimi, eyni zamanda, müasir ölkə kimi göstərir və bu gün islama qarşı çirkin kampaniya aparanlara da bir cavabdır. Ölkə başçımız bununla həm də islam dünyasındakı liderlik mövqeyini ortaya qoymuş oldu. Belə olan halda, hər bir vətənsevər azərbaycanlıda qürur və fəxr hissləri oyanmaya bilməzdi.

Beləliklə, xalqımız növbəti uğurlu və məhsuldar ili geridə qoyaraq, yeni tarixə doğru və yeni uğurlara doğru addım atmağa hazırlaşır. 2017-ci il ölkəmizin şanlı tarix səhifəsinə mütərəqqi siyasi nailiyyətləri ilə yazıldı. Qarşıdan gələn 2018-ci ildə isə, xalqımız ölkəmizin inkişaf və tərəqqisi naminə Prezident İlham Əliyevin ətrafında daha da sıx birləşərək, Ulu Öndər Heydər Əliyev ideologiyasının yaşadılması və inkişaf etdirilməsi istiqamətində öz sədaqətini göstərəcək. Bütün bunların təməlində isə xalqın öz Prezidentinə - Cənab İlham Əliyevə olan tükənməz inamı, etibarı və etimadı dayanmaqdadır!

*Bəhruz QULİYEV,*
*"SƏS" qəzetinin Baş redaktoru*

# Azərbaycanın Qüds məsələsindəki qətiyyətli mövqeyi alqışlanır!

*Məhz bu baxımdan, Bakıda keçirilmiş "2017 - İslam Həmrəyliyi İli" dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfrans yüksək səviyyəli auditoriya topladı*



***Bildiyimiz kimi, BMT Baş Assambleyası ABŞ-ın Qüdsü İsrailin paytaxtı kimi tanımasına dair qərarının qəbuledilməz olması barədə qətnamə qəbul edib. O cümlədən, bundan əvvəl də BMT-nin digər qurumu - Təhlükəsizlik Şurasında Qüdsün İsrailin paytaxtı kimi tanınması qanunsuz hesab edilib və 14 üzv ölkə qətnaməni təsdiq edib. Hətta ABŞ sözügedən qətnaməyə veto qoymuşdu. Üstəlik bu, ölkənin prezidenti Donald Tramp bundan əvvəl ölkəsinin BMT TŞ-nin qətnaməsini dəstəkləyəcək dövlətlərə maliyyə yardımını dayandıracağını bəyan etmişdi.***

Bu kimi təhdidlərə, yaxud da xəbərdarlıqlara baxmayaraq, 128 üzv ölkə ABŞ-ın qərarını rədd edən qətnamənin lehinə səs verib. 9 ölkə əleyhinə, 35 ölkə isə bitərəf mövqedə olub.

### Bu fakt, bir daha sübut edir ki, Azərbaycan müstəqil siyasət yürüdür, beynəlxalq məsələlərin həllinə dair öz mövqeyi var və bu mövqeyi ardıcıl şəkildə müdafiə edir

Söz yox ki, burada Azərbaycan dövlətinin də qətiyyətli qərarı, bir daha ölkəmizin daim ədalətin və doğru prinsiplərin yanında olduğunu sübuta yetirib. Belə ki, Azərbaycan öz ardıcıl və qətiyyətli siyasətinə sadiq qalaraq, beynəlxalq hüquq norma və prinsiplərinin tələblərinə riayət edərək və kənardan müxtəlif təzyiq cəhdləri olmasına baxmayaraq, Qüdsün İsrailin paytaxtı kimi tanınması təşəbbüsünün əleyhinə səs verib.

Əlbəttə, bu fakt bir daha sübut edir ki, Azərbaycan müstəqil siyasət yürüdür, beynəlxalq məsələlərin həllinə dair öz mövqeyi var və bu mövqeyi ardıcıl şəkildə müdafiə edir. Heç bir kənar iradə Azərbaycanı öz müstəqil siyasətindən dönməyə məcbur edə bilməz.

### Ölkəmizdən fərqli olaraq, İstanbuldakı fövqəladə Zirvə toplantısında bir çox islam ölkələri, o cümlədən, türkdilli dövlətlər tədbirin əhəmiyyətini nəzərə almayıb, daha aşağı səviyyədə təmsil olunmuşdular

Həmçinin onu da xatırlatmaq yerinə düşərdi ki, Azərbaycan İstanbulda İslam Əməkdaşlıq Təşkilatının hazırkı sədri Türkiyə Respublikasının təşəbbüsü ilə Qüds məsələsinə dair fövqəladə Zirvə toplantısında ən yüksək səviyyədə təmsil olunub və məsələ ilə bağlı konkret mövqe nümayiş etdirib. Halbuki bir çox islam ölkələri, o cümlədən, türkdilli dövlətlər tədbirin əhəmiyyətini nəzərə almayaraq, daha aşağı səviyyədə təmsil olunmuşdular.

Bəzi türkdilli dövlətlər, o cümlədən, Türkmənistan isə, ümumiyyətlə, türkdilli dövlətlərin ortaq maraqları, islam həmrəyliyi prinsiplərinə biganə mövqe nümayiş etdirir.

### Azərbaycan beynəlxalq hüququn aliliyinə daim hörmətlə yanaşıb və sülhün, təhlükəsizliyin və tolerantlığın möhkəmlənməsinə əməli töhfələrini verib

Bu baxımdan, məhz müstəqil, ardıcıl və prinsipial siyasətin, dünyada islam həmrəyliyinin möhkəmlənməsinə, milli və dini tolerantlığını daha da genişlənməsinə verdiyi mühüm töhfələrin nəticəsidir ki, Bakıda keçirilmiş "2017 - İslam Həmrəyliyi İli" dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfrans yüksək səviyyəli auditoriya topladı. Ümumiyyətlə, bu amil dünyanın müxtəlif ölkələri, beynəlxalq təşkilatlar və s. daxil olan təbrik məktubları Azərbaycanın yürütdüyü siyasətə verilən qiymətin bariz göstəricisidir.

Beləliklə, bu kimi mühüm beynəlxalq məsələlərin həllində Azərbaycanın nümayiş etdirdiyi qətiyyətli, prinsipial və təşəbbüskar mövqeyi beynəlxalq hüququn aliliyinə hörmətin, sülhün və təhlükəsizliyin və tolerantlığın möhkəmlənməsinə əməli töhfənin bariz nümunəsidir.

**R.RƏSULOV**

---

# "Açıq Əyləncəli Futbol Məktəbləri"

*Yevlaxda layihə çərçivəsində növbəti tədbir keçirilib*



"Açıq Əyləncəli Futbol Məktəbləri" layihəsi çərçivəsində növbəti tədbir AFFA-nın və Yevlax rayon icra hakimiyyətinin təşkilatçılığı ilə 22 dekabr 2017-ci il tarixdə Yevlax rayonunda keçirildi. Tədbirdə millət vəkili, AFFA-nın 1-ci vitse-prezidenti, Uşaq-Gənclər Futbol Federasiyasının prezidenti Rauf Əliyev, Yevlax rayonundan seçilmiş millət vəkil İlham Məmmədov, Göyçay rayonundan seçilmiş deputat Sabir Hacıyev, YAP Yevlax rayon təşkilatının aparat rəhbəri Əli Quliyev, Rayon Gənclər və İdman İdarəsinin rəisi Binyamin Musayev və layihənin koordinatoru Kərim Ağayev iştirak edirdi. Tədbirdə millət vəkili, layihənin rəhbəri Rauf Əliyev, millət vəkili İlham Məmmədov, Sabir Hacıyev, YAP Yevlax rayon təşkilatının aparat rəhbəri Əli Quliyev, Rayon Gənclər və İdman İdarəsinin rəisi Binyamin Musayev çıxış etdilər. Çıxış edənlər qeyd etdilər ki, bu layihənin keçirilməsində məqsəd uşaqların və yeniyetmələrin asudə vaxtlarının səmərəli təşkili, onlarda futbola və digər idman növlərinə maraq yaratmaq, sağlam həyat tərzini təbliğ etməkdir. Daha sonra çıxış edənlər tədbir iştirakçılarını qarşıdan gələn 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl bayramı münasibəti ilə təbrik etdilər və uşaqlara müxtəlif idman ləvazimatları paylanıldı. Tədbirin sonunda uşaqlar əyləncəli futbol nümayiş etdirdilər.



**RÖVŞƏN**

---

# Yeni Azərbaycan Partiyası Kürdəmir rayon təşkilatı "700 min ağac əkək" kampaniyası çərçivəsində növbəti aksiya keçirib



Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi ilə əlaqədar "700 min ağac əkək" kampaniyası çərçivəsində YAP Kürdəmir rayon təşkilatı növbəti ağacəkmə aksiyası keçirib. "700 min ağac əkək" kampaniyası çərçivəsində ekoloji mühitin sağlamlaşdırılması məqsədilə həyata keçirilən ağacəkmə aksiyasında YAP Kürdəmir rayon təşkilatının fəalları, idarə heyəti və şura üzvləri, həmçinin Gənclər Birliyinin üzvləri iştirak ediblər. Rayon təşkilatının üzvləri tərəfindən Kürdəmir rayonunun park və meydanlarında 2000 ədəd ağac əkilib. Əkilən ağaclar suvarılıb. Yeni Azərbaycan Partiyasının Kürdəmir rayon təşkilatı ağacəkmə kampaniyası dövründə tədbirlər planına müvafiq olaraq, mərhələli şəkildə partiya üzvlərinin sayına uyğun ağac əkməyi planlaşdırır.

---

# Mamuka Baxtadze: "Azərbaycan Gürcüstan üçün əsas investor olaraq qalır"

Azərbaycan Gürcüstanın strateji tərəfdaşdır və bizim ölkə üçün əsas investor olaraq qalır. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanda səfərdə olan Gürcüstanın maliyyə naziri Mamuka Baxtadze deyib.

Azərbaycanda uğurlu islahatların aparıldığını deyən nazir qeyd edib ki, səfərinin məqsədi təcrübə mübadiləsidir. Nazir deyib: "Azərbaycanla Gürcüstanın ticarət-iqtisadi münasibətlərinin çox yaxşı perspektivi var. Bu il ölkələrimiz arasında ticarət dövriyyəsində artım olub. Düşünürük ki, Bakı-Tbilisi-Qars dəmir yolu və Cənub Qaz Dəhlizi layihələrinin hesabına gələcəkdə ticarət dövriyyəmizi 2-3 dəfə artıra bilərik. Təbii ki, nəqliyyat və enerji layihələri ilə yanaşı, başqa sahələri də inkişaf etdirməliyik".

Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyətindən danışan Mamuka Baxtadze xatırladıb ki, yol tam istismara verildikdən sonra ilkin mərhələdə 5 milyon ton yük daşınacaq, növbəti illərdə bu göstərici 10 milyon tona çatdırılacaq. "Bu, Azərbaycan və Gürcüstan üçün çox vacib layihədir. Bu dəhlizə tələbat gözlənildiyindən çoxdur. Dəmir yolu xətti ilə il ərzində minimum 300 min konteynerin daşınacağını nəzərdə tuturuq", - deyə nazir bildirib.

# Prezident İlham Əliyevin müdrik rəhbərliyi altında Azərbaycan öz tarixinin yeni inkişaf mərhələsini yaşayır



*Azərbaycan Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadənin yap.org.az-a müsahibəsini ixtisarla təqdim edirik:*

**- Əhməd müəllim, bu gün Azərbaycan uğurla reallaşdırdığı qlobal enerji və tranzit layihələri ilə beynəlxalq aləmin diqqət mərkəzinə çevrilmiş ünvanlardan biri olmuşdur. İqtisadi inkişafın Azərbaycan modeli artıq bir fakt kimi qəbul edilir. Həyata keçirilən siyasi-iqtisadi islahatlar ölkəmizin dinamik inkişaf tempinə geriyədönməz xarakter vermişdir. Müstəqil, uzaqgörən, zərgər dəqiqliyi ilə işlənərək həyata keçirilən xarici siyasət Azərbaycanın beynəlxalq nüfuzunu hər keçən gün daha da möhkəmləndirməkdədir. Azərbaycan bu gün öz inkişaf tempinə və səviyyəsinə görə, dünyanın qabaqcıl ölkələri ilə rəqabətə girmişdir. Təbii ki, saymaqla bitməyən nailiyyətlərin sükanı arxasında möhtərəm Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev dayanır. Sizin, Prezident İlham Əliyevin iqtisadi komandasının təmsilçisi kimi fikirlərinizi bölüşmək, ümumi mənzərəyə baxışlarınızı paylaşmaq istərdik.**

- Azərbaycan gənc müstəqil respublika olmasına baxmayaraq, ötən 26 ildə ictimai-siyasi sabitliyin ilbeil möhkəmlənməsi zəminində dövlət müstəqilliyinin və ölkənin dünya birliyində mövqeyinin gücləndirilməsinə xidmət edən mühüm tarixi nailiyyətlər qazanmış, ölkəmizin gələcək inkişaf perspektivləri üçün etibarlı əsas rolunu oynayan dolğun iqtisadi potensialın formalaşdırılması və onun dinamik artımı təmin edilmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu müstəqil Azərbaycanın hərtərəfli inkişaf strategiyasının 2003-cü ildən etibarən Prezident cənab İlham Əliyev tərəfindən qlobal proseslərə və müasir çağırışlara adekvat şəkildə, praqmatik yanaşmalar əsasında daha da təkmilləşdirilməsi, respublikanın ümumi inkişafında milli resurslardan istifadə imkanlarının daha səmərəli və elmi əsaslar üzərində səfərbər edilməsi, siyasi və iqtisadi idarəetmə metodlarının müasirləşdirilməsi ölkəmizi dünyada maraqla qarşılanan və bir çox ölkələr üçün örnəyə çevrilən milli inkişaf modelinə sahib etmişdir. Əldə olunan möhtəşəm uğurlar cənab Prezidentin ilk növbədə ölkədə sosial ədalət prinsiplərinin yüksək səviyyədə təminatına yönələn siyasi kursunun, müasir yanaşmalara əsaslanan mükəmməl islahatlar konsepsiyasının Cənubi Qafqaz məkanında iqtisadi qüdrətinə görə öndə olan Azərbaycanın perspektiv strateji hədəflərinə nail olması və inkişaf etmiş güclü dövlətlər sırasında yer alması üçün də alternativsiz olduğunu təsdiq edir.

Azərbaycan Prezidentinin qlobal iqtisadi böhranın doğurduğu ən çətin sınaqlardan uğurla çıxan sosial-iqtisadi inkişaf strategiyasının prioritet istiqamətlərindən biri vətəndaş firavanlığı amilinin və sosial dövlət prinsiplərinin ön planda saxlanılması, sosial siyasət kursunun ilbeil güclənməsi, ölkədə yoxsulluğun aradan qaldırılmasıdır. Cənab İlham Əliyev hələ 2003-cü ilin oktyabrında respublikamıza rəhbərliyə başlayarkən ölkədə yoxsulluğun aradan qaldırılacağını əsas məqsədlərindən biri kimi bəyan etmişdir və ötən dövrdə bu sahədə əldə olunan nailiyyətlər hazırda mötəbər beynəlxalq iqtisadi institutlar tərəfindən yüksək dəyərləndirilir.

Ümumiyyətlə, çox doğru olaraq Azərbaycan iqtisadiyyatı inklüziv iqtisadiyyat kimi səciyyələndirilir. Başqa sözlə desək, Prezident İlham Əliyevin nümayiş etdirdiyi siyasi iradəyə uyğun olaraq ölkəmizdə güclü iqtisadi inkişaf dərin məzmunlu sosial siyasətlə tamamlanır. Bütün ölkəboyu təhsil, səhiyyə infrastrukturunun ən yüksək standartlar səviyyəsində yenidən qurulması, paytaxtda və bölgələrdə müasir idman obyektlərinin istifadəyə verilməsi, əhalinin rifahının yaxşılaşdırılmasına yönəldilən tədbirlərin miqyasının ilbeil genişləndirilməsi Azərbaycanın sosial dövlət kimi mənzərəsini göz önündə canlandırır. Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifə ondan ibarətdir ki, respublikamızda sosial sahədə vəziyyət dünyanın qabaqcıl ölkələrindəki səviyyəyə yüksəldilməlidir. Məmnunluq hissi ilə vurğulamaq yerinə düşər ki, respublikamızda dinamik iqtisadi artım hesabına yoxsulluq səviyyəsi 2004-cü ildəki 40,2 faizdən hazırda 4,9 faizə enib. Respublikamızda işsizlik də təxminən bu səviyyədək aşağı salınıb.

**- Sosial-iqtisadi inkişafın yeni mərhələsinə qədəm qoymuş Azərbaycanda qarşıya hansı məqsəd və vəzifələr qoyulmuşdur? Sizcə, bu mərhələdə əldə olunan uğurların səciyyəvi xüsusiyyətləri nədən ibarət olmuşdur?**

- Xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən məqsədyönlü dövlət siyasətinin həyata keçirilməsi, dövrün tələblərinə uyğun sistemli islahatların aparılması, ictimai-siyasi, sosial-iqtisadi həyatda mütərəqqi dəyişikliklərin edilməsi, onun qətiyyətli addımları, səriştəli idarəçiliyi nəticəsində ölkənin dayanıqlı inkişaf dinamikasına nail olunmuş, idarəetmə mexanizmi mütəmadi olaraq təkmilləşdirilmiş, səmərəli dövlət idarəçiliyinin, təhlükəsizliyinin, sabitliyin gücləndirilməsi ilə bağlı vaxtında görülən tədbirlər müstəqiliyimizin daha da möhkəmləndirilməsini, dövlətimizin qüdrətinin artmasını, xalqımızın əmin-amanlığının və rifah halının yüksəlməsini təmin etmişdir.

İqtisadiyyatın çoxşaxəliyinə və innovativ dinamik inkişafına nail olan Azərbaycan vaxtında reallaşan islahatlar və icra olunan layihələrlə bu gün regionda lider dövlətə, iqtisadi və siyasi mərkəzə çevrilmişdir.

Möhtərəm Prezidentimizin rəhbərliyi altında qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının və "Strateji yol xəritələri"nin dəqiq mexanizmlərlə icrası inkişafın dinamizmini artırır və əhatəsini daha da genişləndirir. Sürətli, yüksək templi bu irəliləyiş dövlətin yürütdüyü daxili və xarici siyasətin düzgünlüyünün düşünülmüş olması və müasir tələblərə cavab verə bilməsi sayəsində mümkün olmuşdur. Təbii ki, qazanılan nailiyyətlərdə ölkə rəhbərinin güclü, prinsipial siyasi iradəsinin, vaxtında düzgün qərarlar qəbul etməsinin, xalqımızın da möhtərəm Prezidentimizin strateji kursunun dəstəkləməsində Ona olan inamının böyük rolu olmuşdur.

Ölkə rəhbərliyinin yüksək dəqiqliklə seçdiyi və uğurla həyata keçirdiyi məqsədyönlü iqtisadi siyasət sayəsində son 14 ildə iqtisadiyyatımıza 200 milyard manat investisiya qoyulmuş, orta illik iqtisadi artım 12,2 faiz təşkil etmiş, əsas kapitala yönəldilən investisiyaların həcmi 3,6 dəfə artmış, 11 min kilometr avtomobil yolu, 3 mindən çox məktəb, 600 yüzdən çox tibb ocağı, dörd nəhəng su anbarı və digər mühüm əhəmiyyətli obyektlər tikilib istifadəyə verilmiş, yüz minlərlə hektar torpağın meliorativ vəziyyəti yaxşılaşdırılmış və yeni suvarılan sahələr dövriyyə buraxılmışdır.

Kənd təsərrüfatının inkişafının daha da sürətləndirilməsi üçün qısa bir müddət ərzində ölkədə pambıqçılığın, üzümçülüyün, tütünçülüyün, baramaçılığın, ipəkçiliyin və digər sahələrdə "Strateji Yol Xəritələri" işlənib hazırlanmış və dəqiq mexanizmlərlə onların icra olunmasına başlanılmışdır.

Qeyd etmək lazımdır ki, ötən 14 il ölkə həyatı üçün strateji əhəmiyyət daşıyan inkişaf proqramlarının hazırlanması və işlək mexanizmlər əsasında həyata keçirilməsi, ən müxtəlif sahələrdə intibah prosesinin geniş vüsət alması ilə səciyyəvidir. Respublikanın investisiya və sosialyönümlü mahiyyət daşıyan milli inkişaf modeli tərəqqi prosesində yeni keyfiyyət göstəricilərinin əldə olunması, qeyri-neft sektorunun inkişafı yolu ilə regionların balanslı və davamlı inkişafının sürətləndirilməsi, əhalinin sosial-rifah halının daha da yaxşılaşdırılması, faydalı məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin açılması üçün milli sahibkarlığın hərtərəfli dəstəklənməsi kimi vacib məsələləri özündə ehtiva etmişdir. Yeni neft strategiyasının uğurla davam etdirilməsi, Azərbaycanın xarici sərmayələr üçün cəlb ediciliyinin qorunması, milli iqtisadiyyatın müxtəlif sferalarına yönələn sərmayələrin qeyri-neft sektoruna, regionların inkişafına doğru istiqamətləndirilməsi, respublikada güclü insan kapitalının formalaşdırılması məqsədinə yönəldilməsi iqtisadi siyasətin əsas prioritetləri kimi diqqət çəkmişdir. Bunun nəticəsidir ki, ötən 14 il ərzində müstəqil Azərbaycan iqtisadi cəhətdən möhkəmlənmiş, qüdrətlənmiş, sosial- iqtisadi yüksəliş ilk növbədə insanların gündəlik həyatında özünü daha qabarıq büruzə vermişdir. Regionların sosial-iqtisadi inkişafına xidmət edən Dövlət proqramları bölgələrə sərmayə qoyuluşlarının həcmini əhəmiyyətli dərəcədə artırmışdır.

**- Meliorasiya və su təsərrüfatı sistemi ölkəmizin iqtisadiyyatının inkişafında mühüm rol oynayır. Bu baxımdan, qeyd olunan sahə üzrə həyata keçirilən layihələr hansı nəticələr verməkdədir?**

- Hazırda meliorasiya və su təsərrüfatı sistemi də ölkə iqtisadiyyatının mühüm və ayrılmaz bir parçası olaraq, həm qazanılmış nailiyyətlərdə öz payı olan sahəyə, eyni zamanda başlaılnmış genişmiqyaslı islahatların ünvanına çevrilmişdir. Ölkəmizdə meliorasiya və irriqasiyanın inkişafı, bu sahədə aparılan islahatlar, böyük quruculuq işləri, geniş meliorasiya potensialının yaradılması və perspektiv proqramların qəbul edilməsi dünya siyasətinin tanınmış lideri, müdrik və uzaqgörən siyasətçi, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin yorulmaz fəaliyyətinin, zəhmət və siyasətinin bəhrəsi olmuşdur. Respublikada kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasının meliorasiya və su təsərrüfatı sahəsini inkişaf etdirmədən mümkün olmadığını böyük uzaqgörənliklə qeyd etmiş və "Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik" sözlərini tarixə yazmış müdrik şəxsiyyət, Ulu öndərimiz Heydər Əliyev bu sahəni daim diqqət mərkəzində saxlamış, onun inkişafına xüsusi əhəmiyyət verilmişdir.

Son 14 ildə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, tələb olunan həcmlərdə təmir-bərpa işlərinin görülməsi, suvarılan torpaqların su təminatının və onların meliorativ vəziyyətinin yaxşılaşdırılması, sel və daşqın sularına qarşı mübarizə işlərinin davam etdirilməsi və digər sahələrdə müvafiq tədbirlər həyata keçirilmişdir.

Belə ki, bütün maliyyə mənbələri hesabına 2004-2017-ci illərdə 3977 kilometr uzunluğunda suvarma kanallarının, 2463 km uzunluğunda kollektor-drenaj şəbəkələrinin tikintisi, yenidənqurulması və bərpası, 359 min hektar sahədə torpaqların su təminatının və 245 min hektar sahədə meliorativ vəziyyətinin yaxşılaşdırılması işləri yerinə yetirilmiş, 126 min hektardan artıq yeni suvarılan torpaq sahələri əkin dövriyyəsinə daxil edilmişdir. Çaylarda sel və daşqınlara qarşı 183 km -dən artıq muhafizə tədbirləri həyata keçirilmiş, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 1953 ədəd subartezian quyusu qazılaraq istifadəyə verilmişdir.

"Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsinə daxil olan Xanarx kanalının tikintisi 2006-cı ildə, Samur çayı üzərində yerləşən Baş Suqəbuledici qurğunun bərpası, Samur çayı yaxınlığında Baş su duruldulucunun tikintisi, Samur-Abşeron kanalının ilk 50 km-lik hissəsinin və bu hissədə yerləşən uzunluğu 185,7 km olan təsərrüfatlararası kanalların yenidənqurulması işləri 2007-ci ildə başa çatdırılmışdır. Respublikanın 500 min hektar suvarılan sahələrindən duzlu qrunt sularının Xəzər dənizinə axıdılmasını təmin edən Baş Mil-Muğan kollektorunun 3-cü hissəsinin tikintisi 2006-cı ildə başa çatdırılaraq Mil-Qarabağ kollektoru ilə birləşdirilmişdir.

Samur-Abşeron kanalının 50-ci km-dən suyun Taxtakörpü su anbarına verilməsi məqsədi ilə 2008-ci ildə tikintisinə başlanılmış uzunluğu 32 km olan Vəlvələçay-Taxtakörpü kanalının, ümumi sututumu 268,4 milyon kubmetr olan Taxtakörpü su anbarının (ümumi gücü 25 MVt olan Su Elektrik Stansiyası ilə birlikdə) və uzunluğu 108 km-ə yaxın olan Taxtakörpü-Ceyranbatan kanalının tikintisi işləri 2013-cü ildə başa çatdırılmışdır. Eyni zamanda ilk mərhələdə Qusarçay, Qudyalçay və Caqacuqçay çayları üzərində sugötürücü qurğuların və nəqledici kanalların tikintisinin başa çatdırılması ilə Samur-Abşeron kanalına əlavə su verilməsi təmin edilmişdir.

***Ardı Səh. 12***

# Prezident İlham Əliyevin müdrik rəhbərliyi altında Azərbaycan öz tarixinin yeni inkişaf mərhələsini yaşayır

Əvvəli-Səh-11

Möhtərəm Prezidentimiz İlham Əliyev 28 sentyabr 2013-cü il tarixində Taxtaköprü su anbarının SES-lə birlikdə və Taxtaköprü-Ceyranbatan kanalının açılış mərasimində respublikamızın iqtisadiyyatında, ölkənin su təhlükəsizliyinin təmin olunmasında Taxtaköprü və Şəmkirçay su anbarlarının tikintisinin, bu istiqamətdə həyata keçirilən digər layihələrin əhəmiyyətini xüsusi olaraq qeyd etmişdir: "Bu gün dünyada daha çox neftqaz resursları uğrunda mübarizə aparılır və xoşbəxtlikdən Azərbaycan bu resurslardan xalqın rifahı, ölkənin inkişafı naminə səmərəli şəkildə istifadə edir. Amma vaxt gələcək su resursları uğrunda mübarizə daha da kəskinləşəcəkdir. Biz artıq bu mübarizənin təzahürlərini görməkdəyik. Belə olan halda su təhlükəsizliyi Azərbaycanda tam şəkildə təmin edilməlidir. Taxtaköprü su anbarı və Samur- Abşeron suvarma sistemi, Şəmkirçay su anbarı, ölkədə icra edilən su layihələri bu məqsədə xidmət edir".

Samur-Abşeron suvarma sisteminin yenidənqurulması layihəsində nəzərdə tutulan tədbirlərin tam başa çatdırılması nəticəsində respublikanın şimal zonasında 150 min hektar suvarılan torpaqların su təminatının, Bakı, Sumqayıt şəhərlərində və Abşeron yarımadasında əhalinin, sənayenin və kənd təsərrüfatının içməli, texniki və suvarma suyuna olan tələbatının yaxşılaşdırılması, 31 min hektar yeni suvarılan torpaqların kənd təsərrüfatı dövriyyəsinə verilməsi, Taxtaköprü su anbarında inşa olunan su elektrik stansiyasında quraşdırılan 3 turbin vasitəsilə 25 MVt elektrik enerjisinin istehsal olunması, kanal üzərindəki mövcud Sitalçay və Ceyranbatan nasos stansiyalarının ləğv edilməsi ilə ildə 13-15 milyon manatdan artıq elektrik enerjisinə qənaət edilməsi, layihə ərazisində ekoloji vəziyyətin və orada yaşayan 4,0-4,6 milyon nəfər əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması təmin ediləcəkdir.

Taxtaköprü su anbarının tikintisinin başa çatdırılması ilə beynəlxalq layihə şirkəti tərəfindən "Xızı, Siyəzən və Şabran rayonlarında mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması və yeni suvarılan torpaqların istifadəyə verilməsi"nın layihə sənədlərinin hazırlanmasına başlanıldı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə 22 iyul 2014-cü il tarixində Taxtaköprü-Ceyranbatan kanalından suyun Xızı rayonunun yeni suvarılan sahələrinə verilməsi üçün suburaxıcı qurğunun təməlinin qoyulması, 04 sentyabr 2015-ci il tarixində isə 1-ci mərhələdə Xızı rayonunda 3396 hektar (onun 3084 hektarı yeni suvarılan torpaqlardır) və Siyəzən rayonunda 1466 hektar (onun 1424 hektarı yeni suvarılan torpaqlardır) torpaq sahələrinə yeni inşa olunmuş Taxtaköprü-Ceyranbatan kanalından suyun verilməsi mərasimi keçirilmiş və bu torpaqların istifadəsinin tezləşdirilməsi üçün onun tərəfindən müvafiq tapşırıqlar verilmişdir.

Ümumiyyətlə, 2015-2016-cı illərdə Xızı rayonunda 7746 hektar və Siyəzən rayonunda 6172 hektar olmaqla cəmi 13918 hektar sahədə meliorativ tədbirlər başa çatdırılaraq 10801 hektar yeni suvarılacaq sahələr istifadəyə verilmiş və 3117 hektar mövcud suvarılan torpaqların su təminatı yaxşılaşdırılmışdır. Şabran rayonunda isə 2016-cı ildə 13806 hektar yeni suvarılacaq torpaqların istifadəyə verilməsi və 16401 hektar əkin sahələrinin su təminatının yaxşılaşdırılması işlərinə başlanılmıbdır.

Ulu Öndər Heydər Əliyevin Şəmkirçay su anbarının tikintisi ideyaları möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş, 2009-cu ildə onun iştirakı ilə su anbarının tikintisinin təməlqoyma və 2014-cü ildə açılış mərasimləri keçirilmişdir. SES-lə birlikdə Şəmkirçay su anbarının, ondan su götürən 60,5 km uzunluğunda magistral kanalların istifadəyə verilməsi ilə Şəmkir, Samux, Göygöl və Goranboy rayonlarında 54 min hektar əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına, 17 min hektar yeni suvarılacaq torpaqların istifadəyə verilməsinə, ildə 56 milyon kvt elektrik enerjisinin istehsal olunmasına, Gəncə və Şəmkir şəhərlərinin, Samux rayonunun Nəbiağalı qəsəbəsinin əhalisinə ildə 50,0 milyon kbm-ə yaxın ekoloji təmiz içməli su verilməsinə imkan yaranmışdır. Hazıda su anbarından Şəmkir şəhərinə içməli su verilir, Gəncə şəhərinə və Samux rayonunun Nəbiağalı qəsəbəsinə isə içməli su xətti hazır olduqdan sonra suyun verilməsi təmin ediləcəkdir.

Şəmkirçay su anbarı istifadəyə verildiyi vaxtdan keçən müddət ərzində ona yığılan 715 milyon kbm su hesabına Şəmkir, Samux və Göygöl rayonlarının 35000 hektara yaxın əkin sahələrinin su təminatı yaxşılaşdırılmış, Şəmkir və Göygöl rayonlarının 4000 hektar, eləcə də "Şəmkir Aqropark"ın 543 hektar yeni suvarılacaq sahələri suvarma suyu ilə təmin edilmişdir.

2016-cı ildə tikintisi tamamlanmış ümumi sututumu 20 milyon kubmetr olan Tovuzçay su anbarına yığılan su hesabına Tovuz və Şəmkir rayonlarının 20 min hektara yaxın əkin sahələrinin su təminatı yaxşılaşdırılmış, 300 hektar yeni suvarılacaq torpaqlar isə suvarma suyu ilə təmin edilmişdir.

Cəlilabad rayonunda ümumi sututumu 3,7 milyon kubmetr olan Göytəpə su anbarının tikintisi 2010-cu ildə başa çatdırılaraq 681 hektar yeni suvarılacaq sahələr suvarma suyu ilə təmin edilmişdir.

**- Qeyri-neft sektorunun yüksək inkişafının təmin edilməsini əsas hədəf seçmiş Azərbaycanda mühüm istiqamətlərdən biri kimi aqrar sahənin inkişafı da hökumətin xüsusi diqqət mərkəzindədir. Kənd təsərrüfatının dinamik inkişafı üçün həyata keçirilən layihələrdən biri də məhz əkin sahələrinin genişləndirilməsi, kollektor-drenaj şəbəkələrində əsaslı tikinti, təmir-bərpa və yenidənqurma işlərinin aparılmasıdır. Bu istiqamətdə nə kimi işlər görülüb?**

- Ölkəmizdə iri kənd təsərrüfatı müəssisələrinin yaradılması ilə əlaqədar Şəmkirçay su anbarından "Şəmkir" Aqroparkın 543 hektar, Samur-Abberon suvarma sistemindən "Yalama" Aqroparkın 523 hektar, Yuxarı Mil kanalının 15,25 km -lik hissəsinin tikintisinin tamamlanması nəticəsində Füzuli, Beyləqan və Ağcabədi rayonları ərazilərində pilot "Qarabağ" və "Kroun-Ko" iri taxılçılıq təsərrüfatlarına məxsus 10525 hektar sahədə özəl taxılçılıq təsərrüfatlarının, Neftçala rayonunda 20204 hektar (ondun 6804 hektarı yeni suvarılan torpaqlardır) torpaq sahəsinə suvarma suyunun verilməsini təmin edəcək Kür çayında üzən nasos stansiyasının, təzyiqli boru kəmərinin və Neftçala magistral kanalının 9,55 km-lik hissəsinin tikintisinin başa çatdırılması ilə 967 hektar torpaq sahəsinin su təminatı yaxşılaşdırılmış və 1200 hektar yeni suvarılan torpaq sahəsinə suvarma suyu çatdırılmışdır. Yuxarı Şirvan kanalından su götürən və uzunluğu 28 km olan Hacıqabul magistral kanalının tikintisi ilə Hacıqabul rayonunda yaradılmış iri kənd təsərrüfatı müəssisəsinə məxsus 1625 hektar, Padar qəsəbəsinin və Qarasu kəndinin 1587 hektar yeni suvarılan torpaq sahəsi suvarma suyu ilə təmin edilmiş, Ağcabədi rayonunun 4500 hektar qış otlaq sahələrinə suvarma suyunun verilməsi üçün Yuxarı Mil kanalının tikintisi davam etdirilmiş,Sabirabad və Biləsuvar rayonlarında 15950 hektar az məhsuldar qış otlaq sahələrinə Kür çayından suvarma suyunun verilməsi məqsədilə nasos stansiyasının tikintisi işlərinə başlanılmışdır.

Eyni zamanda işğal ərazisi ilə təmas və sərhəd zonalarında yerləşən Füzuli və Qazax, eləcə də Kürdəmir, Goranboy, Zərdab və digər rayonların 2862 hektar torpaqlarını suvarma suyu ilə təmin etmək üçün nasos stansiyalarının və suvarma kanallarının tikintisi işləri tamamlanmışdır. Salyan rayonunda 12589 hektar az məhsuldar qış otlaq sahələrində meliorativ tədbirlərin işçi layihəsinin hazırlanması işləri aparılmışdır.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə ehtiyat fondundan ayrılan vəsait hesabına 2013-2016-cı illərdə əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün respublikanın əhalisi 1,3 milyon nəfərdən çox olan 40 şəhər və rayonunun 560 yaşayış məntəqəsində 957 subartezian quyusu qazılmışdır.

Dünya Bankının krediti ilə 140 min hektar suvarılan sahələrə xidmət edən Araz çayı üzərindəki Bəhrəmtəpə hidroqovşağının, respublikanın 9 rayonunun və Naxçıvan MR-in (Babək və Şərur rayonları) 52 min hektara yaxın ərazisində suvarma- drenaj şəbəkələrinin təmir- bərpası işləri 2010-cu ildə başa çatdırılmış, 2011-ci ildən isə respublikanın daha 15 rayonunda Sudan İstifadəedənlər Birliklərinin institusional gücləndirilməsi və onların 85 min hektar xidmət ərazilərində təsərrüfatdaxili suvarma-drenaj şəbəkələrinin təmir- bərpası işlərinə başlanılmışdır. Bu məqsədlə layihə çərçivəsində 198 ədəd ofis binası, respublikanın 4 rayonunda (Sabirabad, Quba, Qax və Zərdab) Regional Dəstək Mərkəzləri tikilmiş və 88 ədəd ekskavator alınaraq Sudan İstifadəedənlər Birliklərinin balansına verilmişdir.

Eyni zamanda respublikanın 8 rayonunda içməli su təchizatı və kanalizasiya sistemləri infrastrukturunun bərpası və tikintisi işləri davam etdirilmiş, Ağsu, İsmayıllı, Siyəzən, Şabran, Cəlilabad, Lerik və Masallı rayonlarında içməli su və kanalizasiya xətlərinin tikintisi başa çatdırılmış, Yardımlı rayonunda isə bu işlər davam etdirilir.

Bütün maliyyə mənbələrindən ayrılan vəsait hesabına 2004-2016- cı illərdə respublikanın 24 rayonunun sel və daşqın təhlükəli 41 çayında 183427 metr sahilbərkitmə tədbirləri həyata keçirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci ilin 9 ayının sosial- iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda respublikada həyata keçirilən infrastruktur layihələri arasında meliorasiya məsələlərinin ön planda durduğunu, meliorativ tədbirlərin növbəti ilin Dövlət İnvestisiya Proqramında və ondan sonrakı illərdə də daim prioritet olacağını qeyd edən ölkə başçısı tərəfindən suvarılan torpaq sahələrini hər il artırmaqla pambıqçılığın, tütünçülüyün, üzümçülüyün, baramaçılığın, çayçılığın və digər kənd təsərrüfatı sahələrinin sürətli inkişafının təmin edilməsi istiqamətində müəyyən edilmiş hədəflərə nail olunması sahəsində bizim qarşımızda mühüm vəzifələr qoyulmuşdur.

**- Məlumdur ki, Azərbaycanda qeyri-neft sektorunun dinamik inkişafının təmin edilməsi əsas hədəflərdən biridir. Bu məqsədlə, respublikamızda ənənəvi kənd təsərrüfatı məhsulları ilə yanaşı, yeni sahələrin də yaradılması və inkişafı xüsusi diqqət mərkəzindədir. Bu məsələ ilə əlaqədar Səhmdar Cəmiyyətin qarşısında hansı vəzifələr dayanır?**

- Azərbaycan Respublikası Prezidentinin ölkədə pambıqçılığın, taxılçılığın, tütünçülüyün və digər kənd təsərrüfatı məhsulları istehsalının inkişaf etdirilməsi ilə əlaqədar Səhmdar Cəmiyyəti qarşısına qoyulmuş vəzifələrin vaxtında yerinə yetirilməsini təmin etmək üçün əvvəlki illərdə olduğu kimi, 2017-ci ildə də öz uğurlu fəaliyyətini davam etdirir.

Dünya Bankının krediti ilə həyata keçirilən "Sudan İstifadəedənlər Birliklərinin İnkişafına Dəstək Layihəsi"ndə qənaət edilmiş vəsait hesabına respublikanın İmişli, Ağcabədi, Goranboy, Saatlı və Beyləqan rayonlarının ərazilərində 13836 hektar sahədə suvarma və drenaj şəbəkələrinin bərpası və yenidənqurulması işləri davam etdirilmiş, 81 km uzunluğunda drenaj şəbəkələrində,180 km uzunluğunda suvarma kanallarında bərpa və təmizləmə işləri aparılmış, 14 km uzunluğunda mövcud kanallar betonla üzlənmiş, onların üzərində 198 mövcud qurğu təmirbərpa edilmiş və 862 ədəd yeni hidrotexniki qurğu tikilmişdir.

Dövlət Neft Fondundan ayrılmış vəsait hesabına "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsinə daxil olan Şabran, Siyəzən və Xızı rayonları ərazisində 21 min hektar, ondan 11 min hektar yeni suvarılacaq torpaqların istifadəyə verilməsi və 10 min hektar mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması üçün 86 km uzunluğunda paylayıcı boru kəməri və 48 km qapalı drenaj xətti çəkilmişdir. Hazırda Siyəzən rayonu ərazisində 2205 hektar yeni suvarılan torpaqlara suvarma suyunun çatdırılması və 4425 hektar sahədə su təminatının yaxşılaşdırılması işləri tamamlanmışdır. Xızı rayonu ərazisində 4833 hektar (onun 3575 hektarı yeni suvarılan torpaqlardır) və Şabran rayonunda 9255 hektar (onun 5189 hektarı yeni suvarılan torpaqlardır) sahədə meliorativ tədbirlər davam etdirilir və cari ilin sonunda başa çatdırılacaqdır.

Dövlət büdcəsindən ayrılmış vəsaitlər hesabına Sabirabad rayonunun Sarxanbəyli, Moranlı, Bala Həşimxanlı, Əlilənbəyli kəndlərinin əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün Kür çayı üzərində inşa edilmiş nasos stansiyasının hidrotexniki avadanlıqlarının quraşdırılması işləri görülmüş və "H" kanalının 7,78 km hissəsinin beton məcrada qurğularla birlikdə tikintisi işləri cari ildə başa çatdırılmışdır. Bununla da, 1-ci mərhələdə 3947 hektar əkin sahələrinin su təminatı yaxşılaşdırılmış və 200 hektar yeni suvarılan torpaq sahəsi suvarma suyu ilə təmin edilmişdir. Eyni zamanda Sabirabad rayonunun qış otlaqlarında 5000 hektar yeni suvarılan torpaq sahələrinə suvarma suyunun çatdırılmasını (paylayıcı kanallarsız və kollektor-drenaj şəbəkəsiz) təmin etmək üçün 1-ci mərhələdə Kür çayı üzərində nasos stansiyasının, 1 xətli təzyiqli boru kəmərinin, 35 kV elektrik hava xəttinin və tənzimləyici hovuzun tikintisi işləri aparılmışdır. Ağcabədi rayonunda isə Yuxarı Mil kanalının 5092 m hissəsi, 2 ədəd selötürücü qurğunun tikintisi tamamlanaraq 2700 hektar torpaq sahəsinə suvarma suyu çatdırılmışdır.

# “Budur məsələ!”

## Elşən Musayev: “Müxalifət -5 manat pul müqabilində bütün dəyərləri satan müxalifətdir”



**Müsahibimiz Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayevdir**

***- Elşən müəllim, artıq sübuta yetirilir ki, bəzi beynəlxalq təşkilatların Azərbaycana qarşı qərəzli hesabatlar yaymasında dağıdıcı müxalifət ünsürlərinin donosları mühüm rol oynayıb. Sizcə, müxalifətin dövlətimizə və milli maraqlarımıza qarşı düşmən mövqe sərgiləməsinin arxasında hansı maraqlar dayanır?***

- Azərbaycanın radikal müxalifət kəsimi nə zaman xalqa, onun səsinə, millətin siyasi iradəsinə güvənərək hərəkət edib ki? Heç vaxt! Onların işi, məhz həmişə donos, anonim yaymaqdan və yazmaqdan ibarət olub. Bu gün də, öz ənənələrini davam etdirirlər, dəyişməyən xarakterlərini, xislətlərini yenidən göstərirlər. Sadəcə, məsələ burasındadır ki, həmin o haqqında danışdığımız beynəlxalq təşkilatlar da, niyəsə özlərinə sərf edəndə, bizim radikal müxalifət ünsürlərinin yaydığı, göndərdiyi dezinformasiyalardan, yanlış məlumatlardan informasiya mənbəyi kimi istifadə edirlər. Yəni müxalifətimizin hansı yuvanın quşu olması hamıya bəllidir. Yaxşı, bəs həmin təşkilatlara nə gəlib? Adam da Ə.Kərimli kimi siyasət alverçisinin, Leyla Yunus kimi mənsubiyyətsizin sözü ilə yazımı yazar, sözmü deyər? Budur məsələ! Müxalifət həmin müxalifətdir, 5 manat pul müqabilində bütün dəyərləri satan müxalifətdir.

***- Növbəti il prezident seçkiləri keçiriləcək. Mümkündürmü ki, xarici qüvvələrlə dağıdıcı müxalifət bir araya gəlib təxribat və qarşıdurmalar yaratsın?***

- Xeyr, mümkün deyil. Buna, ən uzağı, cəhd edə bilərlər. Vəssalam. Amma dediyinizi reallaşdırmaq nə müxalifətin, nə də hansısa qeyri-qüvvənin istedadında və qüdrətində olacaq bir şey deyil. Bizim ölkənin ən böyük üstünlüklərindən biri onun sahib olduğu sabitlikdir. Bu sabitlik isə qram-qram və milyon əziyyət hesabına qazanılıb. Elə müxalifətin ən böyük arzusu da budur ki, xaos dövrü qayıtsın. Xatırlayırsınızmı həmin dövrü? Rəhim Qazıyev Elçibəyin sözünü kəsirdi, İsgəndər Həmidov efirə, canlı yayıma gəlib adam döyürdü, dövlət obyektlərinə basqınlar olurdu, gecə hamı çöl qapısını bərk-bərk bağlayıb yatırdı, çölə-bayıra çıxmırdı, riyaziyyat müəllimi hərbi, fizika müəllimi diplomatiya sahəsinə rəhbərlik edirdi. Bax, həmin dövrə qaytarmaq istəyirlər bizi. O dövr ki, kimsə yerində deyildi, xaos dövrü idi. Amma arzularına çatmayacaqlar. Azərbaycanın İlham Əliyev kimi ləyaqətli və vətənpərvər Prezidenti var. Xalq öz rəhbərini dəstəkləyir. Bu vəhdət olan yerdə heç bir kənar müdaxilə və təxribat cəhdi effekt verə bilməz.

***- “Gələcək Azərbaycan Partiyası”nın lideri Rəsul Quliyev iddia edir ki, AXCP sədri Əli Kərimli və Müsavat başqanı Arif Hacılı aksiyalar keçirtməklə iğtişaşlara cəhdlər göstərəcəklər. Sizcə, Rəsul Quliyevdə belə bir məlumat haradan ola bilər?***

- Rəsul Quliyevin gələcəyə heç bir aidiyyəti yoxdur. Ona görə də, ilk öncə, partiyasının adını dəyişsin. O, siyasi morqdadır, bir dənə yiyə duran lazımdır ki, onu ordan götürsün və aparıb torpağa basdırsın. Yeri gəlmişkən, qeyd edim ki, R. Quliyev Kərimliyə və Hacılıya nifrət edən adamdır. Üstəlik, bu nifrət qarşılıqlıdır. Bilmirəm, məlum informasiya Quliyevdə hardandır, amma hər halda, onun da söz aparıb- gətirənləri var. Yəqin onlar pıçıldayıb. Məsələ burasındadır ki, Kərimli və Hacılıdan, həqiqətən də, hər cür pislik gözləmək mümkündür. Sadəcə, bayaq dediyimi bir daha təkrarlayıram: bu təxribatı reallaşdırmaq mümkün deyil. Kimsə ölkədəki sabitliyi poza bilməz. Bu, birmənalı aksiomdur.

***- Bu gün AXCP ilə Müsavat arasında kəskin ziddiyyətlər və qarşıdurmalar mövcuddur. Amma R.Quliyev onların bir araya gəlib aksiyalar keçirəcəyini bildirir. Düşmənlərin dostlara çevrilməsi nə dərəcə də mümkündür?***

- Desin də, keçrirsin də, nə dəyişəcək ki? Mitinqlərinə əvvəl 3 adam gəlirdi, indi gələcək 4 adam. Bunlar ideologiyalarını dəyişməlidirlər. Məhz ideologiyanı! Belə müxalifətçilik olmaz, belə siyasi fəaliyyət olmaz. Bir siyasətçi seçkiöncəsi 3-4 mitinq keçirməklə, işini bitmiş hesab etməməlidir. Xalqın içində olmaq lazımdır, xalqı dinləmək, fikirləri xalqla bölüşmək lazımdır. Cənab Prezident, iş qrafikinin bu qədər gərgin olmasına baxmayaraq, bütün ölkəni az qala kənd-kənd gəzir. Hətta öz ad gününü və yubileyini belə cəbhə bölgəsində keçirir. Amma onun rəqibləri kompüter klaviaturasından o yana keçə bilmirlər. Bax, buna görə İlham Əliyev qalibdir və xalq Onu sevir. 2018-ci il də bu qalibiyyətin davamını gətirən il olacaq. Buna kimsə şübhə etməsin.

**GÜLYANƏ**



# Səbaildə Dünya Azəbaycanlılarının Həmrəyliyi Günü ilə bağlı tədbir keçirildi

Dənizkənarı Milli Bulvardakı Beynəlxalq Muğam Mərkəzində Səbail rayon icra hakimiyyəti, “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti və Beynəlxalq Muğam Mərkəzinin birgə təşkilatçılığı ilə 31 Dekabr - Dünya Azəbaycanlılarının Həmrəyliyi Günü və Yeni İlə həsr olunmuş ədəbi-musiqili tədbir tədbir keçirilmişdir. Tədbirdə rayon rəhbərliyi, Milli Məclisin deputatları, rayondakı idarə, təşkilat, elm və təhsil müəssisələrinin, gənclər, veteranlar və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər. Tədbirin əvvəlində Səbail gənclərinin keçən il dekabr ayının 24-də təşkil etdikləri “İlham Əliyev və Müasir Azərbaycan - gənclərin gözü ilə” mövzusunda dəyirmi masanın yekunlarına uyğun olaraq, çap olunmuş “İlham Əliyev və Müasir Azərbaycan - gənclərin gözü ilə” adlı kitabın təqdimatı keçirildi. Mərasimdə çıxış edən Səbail rayon icra hakimiyyətinin başçısı Eldar Əzizov bildirmişdir ki, Möhtərəm Prezidentimiz İlham Əliyev dünya siyasətçiləri arasında öz siyasəti və gördüyü işlərlə, xüsusi olaraq, seçilən dövlət rəhbəridir. Ona görə, bu dahi insanın siyasətini öyrənib təbliğ etmək vacib məsələdir. O, Azərbaycanda misli görünməmiş inkişaf və tərəqqi siyasətini həyata keçirən şəxsiyyətdir. Bu gün Prezident İlham Əliyevin siyasi xətti hazırkı mürəkkəb dövrdə yeganə və alternativsiz siyasətdir və Azərbaycanımızın gələcək inkişaf və tərəqqisinə təminat verir. Ona görə də, gənclər tərəfindən ölkə başçısının fəaliyyətinin müxtəlif istiqamətlərinə həsr olunan məqalələrinin toplandığı bu kitabın nəşri təqdirəlayiqdir. Eldar Əzizov arxada qalan 2017-cı ildə rayonda görülmüş işlər, gələcəkdə həyata keçiriləcək layihələr barədə məlumat verərək, tədbir iştirakçılarını - Dünya Azəbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl münasibəti ilə təbrik etmişdir. Qeyd olundu ki, 31 dekabr tarixi Azərbaycan millətinin ümumdünya birlik günüdür. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır və dünyanın 70-dən çox ölkəsində yaşayan azərbaycanlılar tərəfindən qeyd olunur. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Beləliklə, 31 dekabr tarixi bütün azərbaycanlılar üçün əziz olan Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edilir. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev hazırda Ulu Öndərin bu estafetini də uğurla davam etdirir. Hazırda ölkə başçısının gördüyü işlər, həyata keçirilən siyasət Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılmasında mühüm rol oynayır.

Beynəlxalq Muğam Mərkəzində təşkil olunan konsertdə Azərbaycanın tanınmış incəsənət xadimlərindən xalq artistləri Murad Hüseynov, Gülyaz Məmmədova, əməkdar artistlər Rəşad İlyasov, Zakir Əliyev, populyar müğənnilər Nadir Qafarzadə, Aynur İsgəndərli, Emiliya Yaqubova, Rövşən Əziz, Ayşən Mehdiyeva, Samir Piriyev, Sərxan Bünyadzadə və başqaları çıxış etmişlər. Tədbirdə Səbail rayon ictimaiyyətinin nümayəndələri adından ölkəmizin Prezidenti Cənab İlham Əliyev doğum günü münasibəti ilə təbrik edilmiş, Ona möhkəm can sağlığı, xoşbəxtlik, Azərbaycanımızın tərəqqisi və inkişafı, xoşbəxt gələcəyi naminə göstərdiyi möhtəşəm fəaliyyətində müvəffəqiyyətlər arzulanmışdır.

**ZÜMRÜD**

# Elçin Mirzəbəyli: “Azərbaycan bütün məsələlərə sayqı ilə yanaşır”



BMT Baş Assambleyası ABŞ-ın Qüdsü İsrailin paytaxtı kimi tanınmasına dair qərarının qəbuledilməz olması barədə qətnamə qəbul edib. Bu kimi mühüm beynəlxalq məsələlərin həllində Azərbaycanın nümayiş etdirdiyi mövqe beynəlxalq hüququn aliliyinə hörmətin, sülhün və təhlükəsizliyin, tolerantlığın möhkəmlənməsinə əməli töhfələrin bariz nümunəsidir.

Məsələ ilə bağlı SİA-ya açıqlama verən siyasi şərhçi Elçin Mirzəbəyli deyib ki, Azərbaycanın nümayiş etdirdiyi mövqe birmənalı şəkildə beynəlxalq hüququn prinsiplərinə söykənir: “Azərbaycan bundan öncə də həm BMT çərçivəsindəki davranışlarında, həm də digər beynəlxalq təşkilatlardakı davranışlarında birmənalı şəkildə beynəlxalq hüququn prinsiplərindən çıxış edib. Azərbaycan Fələstin probleminin həlli ilə bağlı BMT Baş Assambleyasının qəbul etdiyi qərarlara istinad edib. 1947-ci ildə Fələstin ərazisində iki dövlətin yaradılması ilə bağlı BMT Baş Assambleyasının qətnaməsi var. Bu qətnamədən sonra bir neçə dəfə BMT Baş Assambleyası oxşar qətnamələr qəbul edib. Bu aspektdən də ölkəmizin beynəlxalq hüququn prinsiplərinə daim sayqı nümayiş etdirməsi və dünyada sülhün, əmin-amanlığın təmin olunması üçün məhz beynəlxalq hüququn prinsiplərinin tətbiq edilməsinin vacibliyini önə çəkməsi Azərbaycanın sabit bir siyasət yürüdən dövlət olduğunun göstəricisidir. Bunun üçün də ölkəmizin mövqeyi hesab edirəm ki, ən düzgün bir mövqedir. Təkcə, Fələstin, Qüds məsələsinə deyil, bütövlükdə Azərbaycan dövlətlərin ərazi bütövlüyü ilə bağlı məsələlərə, eləcə də digər beynəlxalq hüququn prinsiplərindən irəli gələn məsələlərə sayqı ilə yanaşır və daim da bunu təşviq edir. Hesab edirəm ki, bu gün məhz bu mövqe dünyada sülhün, əmin-amanlığın, təhlükəsizliyin təmin olunması üçün vacib şərtlərdən biridir”.

**Ceyhun RASİMOĞLU**

TƏRS BAXIŞ

# Müsavatla bağlı bir neçə il qabaqkı proqnozlar reallaşır

*İsa Qəmbər yenidən başqan olmaq üçün partiyanı parçalayır*

Müsavat partiyasının sonuncu qurultayından sonra partiyadaxili qarşıdurmalar fonunda cərəyan edən gərgin hadisələr elə həmin qurultay ərəfəsində verilən proqnozları reallaşdırmaqdadır. Həmin proqnozlardan biri də, bu idi ki, İ.Qəmbər başqanlıqdan gedərkən, A.Hacılını ona görə, öz yerinə təyin etdi, yəni başqanlıq seçkilərini onun üçün saxtalaşdırdı ki, yenidən başqan olmaq şansını əlində saxlasın. Bu səbəbdən, dərhal "MSDM" adlı qurum yaradıb, özünü də bu qurumun sədri elan edən İ.Qəmbər növbəti qurultaya qədər siyasi arenada qalmaq üçün bundan münbit vasitə tapa bilməmişdi. İndi isə növbəti qurultayın və başqanlıq seçkilərinin zamanı çatır. İ.Qəmbər köhnə postuna dönmək üçün yeganə çıxış yolunu partiyanı parçalamaqda görür. Daha doğru desək, onun istər partiyada, istərsə də müxalifət düşərgəsində "parçala və hökm sür" ənənəsi bu gün də davam edir. Həmçinin, İ.Qəmbər 2018-ci ildə keçiriləcək prezident seçkilərinə də partiyanın namizədi qismində qatılmağa hazırlaşdığını bəyan edib. Bütün bunlar isə, növbəti hadisələrin reallaşmasına zəmin yaradır...

### Müsavat "bir həsir, bir Məmmədnəsir" deyimli siyasi təşkilat olaraq, yalnız klan üsul-idarəçiliyi fonunda uzağı bir neçə nəfərlə ömrünü başa vurmalı olacaq

Əbəs yerə deyil ki, son günlər Müsavat partiyasını növbəti istefa dalğası bürüyüb. Məsələn, bu yaxınlarda istefa xəbəri yayılan Müsavat başqanının siyasi məsələlər üzrə müavini Elman Fəttah, məhz A.Hacılının qurultaydan sonra formalaşdırdığı rəhbər komandada təmsil olunurdu. Ona görə də, birdən-birə istefa vermək səbəbi qaranlıq məsələləri ortaya çıxarmış oldu. Yəni E.Fəttah partiyanın idarəçiliyində yaranan fikir ayrılığını səbəb gətirərək, istefa versə də, digər məqamdan, belə nəticəyə gəlmək olar ki, onun istefası gələn il baş tutacaq prezident seçkiləri öncəsi partiyadaxili parçalanmaların getdikcə şiddətlənəcəyini də proqnozlaşdırır .

Xatırlatmaq yerinə düşərdi ki, başqan müavininin istefası, həm də, onu deməyə əsas verir ki, artıq A.Hacılı partiyanı idarəedilməz hala gətirib və hətta öz komandası ona qarşıdır. Təkcə Elman Fəttah yox, digər müavinləri də A.Hacılının yarıtmaz siyasətindən narazıdır. Əlbəttə, yalnız A.Hacılıya yaxın olan şəxslər klan olaraq onun ətrafında qalmaqda davam edirlər. Bu isə, həm də qənaətə gəlməyə zəmin yaradır ki, istefaların ardı-arası kəsilməyəcək, sonda Müsavat "bir həsir, bir Məmmədnəsir" deyimli siyasi təşkilat olaraq, yalnız klan üsul-idarəçiliyi fonunda, uzağı, bir neçə nəfərlə ömrünü başa vurmalı olacaq.

### Sabiq divan üzvü: "Qurultaydan sonra Arif Hacılının formalaşdırdığı rəhbərlik, idarəetmə fəlsəfəsi partiyanı bu hala gətirməli idi"

Onu da qeyd edək ki, bu gün bir çox sabiq müsavatçılar baş verənləri daha öncədən hiss etdiklərini deməklə bərabər, digər məsələləri də aydınlaşdırmağa çalışırlar. Məsələn, hazırda "Ağ partiya" adlı təşkilat yaradan Müsavatın keçmiş divan üzvü Tural Abbaslı qeyd edir ki, istefa verdiyi partiyada siyasi-məişət məsələləri zəminində qarşıdurmalar yaşanır. SİTAT: "Bu istefa gözlənilən idi. Qurultaydan sonra A.Hacılının formalaşdırdığı rəhbərlik və idarəetmə fəlsəfəsi partiyanı bu hala gətirməli idi. Hətta bundan da ağır olacağı proqnozlaşdırılır. Çünki rəhbərlikdə təmsil olunanların əksəriyyətinin idarəçilik təcrübəsi yoxdur. Partiyanı tanımırlar. Bu günə qədər əksəriyyət partiya rəhbərliyində təmsil olunmayıb. Bu vəzifəyə birdən-birə gətiriliblər".

Keçmiş müsavatçıya görə, A.Hacılının müavin təyin etdiyi şəxslər təsadüfi vəzifəyə gələnlərdir: "Onların heç birinin arasında siyasi münasibətlər zəminində fikir birliyi və ortaq mövqe olmayıb. Birdən-birə oturdulublar ora və partiyanı idarə etməyə çalışırlar. Amma bu adamların düşüncə tərzi eyni deyil. A.Hacılı ilə divanda təmsil olunan insanlar dünənə qədər əks-mövqedə idilər. Qurultayda bəziləri məcburiyyətdən A.Hacılını dəstəklədilər. Hacılı da mükafat kimi onları rəhbərliyə gətirdi".

### Onlar bundan daha ağır vəziyyətin olacağına əmindirlər

"Təcrübəsizlik, partiyanı tanımamaq, siyasi situasiyanı dəyərləndirə bilməmək ucbatından bu şəxslər indi partiyanı belə hala salıblar"-deyə qeyd edən Abbaslı hesab edir ki, o, Müsavat partiyasında daha ağır vəziyyətlərin baş alıb gedəcəyinə əmindir: "Bundan daha ağır vəziyyətin olacağına əminəm. Sadəcə, partiyanın sıravi üzvlərinə ürəyim ağrıyır. Onlar illərini partiyaya həsr ediblər. Ancaq rəhbərliyin səriştəsizliyi ucbatından partiya bərbad hala düşüb. Rəhbərlikdə təmsil olunanların 90 faizinin alt qurumlarda, rayon təşkilatlarında heç bir nüfuzu yoxdur. Onlar qəbul olunmurlar. Bu da partiyanı zəiflədir. Acınacaqlı günlər hələ qabaqdadır".

Daha bir nüans 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə bağlıdır. Çünki partiyanın kuluarlarında gəzən



söz-söhbətlər də, belə deməyə kifayət qədər zəmin yaradır. Xüsusilə, sabiq başqan İ.Qəmbərin rəhbərlik etdiyi "MSDM"-in noyabrın 21-də keçirilən tədbirindən sonra baş qaldıran fikir ayrılıqları vəziyyətin mürəkkəbliyindən xəbər verir. Belə ki, həmin tədbirdə İ.Qəmbər 2018-ci il seçkisində Müsavatın namizədi olacağını bəyan edib. Həmin qərar isə, bir çox müsavatçıların maraqları kontekstində deyil. Yəni yenilik axtarışına çıxan müxaliflər İ.Qəmbərin dəfələrlə namizəd olub, seçkidə uduzduğunu əsas gətirərək, bu qərara qarşı çıxıblar. Onlardan biri də istefa verən başqan müavini E.Fəttah olub. O cümlədən, E.Fəttah açıq şəkildə deyib ki, İ.Qəmbərin seçkiyə qatılacağı təqdirdə, məğlub olacağı indidən bəllidir və o, bunu irad tutaraq, gənc namizədlərə üstünlük verilməsini təklif edib. Nəticədə, onun təklifi Hacılı klanı tərəfindən rədd edilib. Bundan sonra isə, qarşıdurmalar yaşanıb, hətta illər öncə olduğu kimi, əlbəyaxa savaş da baş verib.

### Yarıtmaz siyasətin yarıtmaz da nəticələri olur

Sonda isə, xatırlatmaq olardı ki, A.Hacılının İ.Qəmbərin dirijor çubuğu sayəsində yarıtmaz siyasətinə qarşı çıxan başqan müavini yalnız E.Fəttah deyil. Onlardan biri də Tofiq Yaqubludur. AXCP sədri Ə.Kərimliyə yaxınlığı ilə diqqət çəkən T.Yaqublunun da yaxın günlərdə vəzifəsindən istefa verməsi gözlənilir. Bu məsələdə digər istefaya çıxacaq şəxsin T.Yaqublunun yaxın qohumu, Müsavatın divan üzvü Alya Yaqublu olacağı bildirilir. Bütün bunlar isə, bilavasitə İ.Qəmbərin siyasi ambisiyalarının məntiqi nəticələridir ki, A.Hacılı həmin ambisiyaların güdazına həm özünü, həm də partiyanı qurban vermək zorunda qalıb. Hər halda, yarıtmaz siyasətin yarıtmaz da nəticələri olur.

**R. RƏSULOV**

# "Milli Şura"-AXCP cütlüyü və müsavatçılar yenidən qırğında

*Sosial şəbəkədə payız aylarından başlayan savaş ilin sonuna doğru daha da şiddətlənir*

Son günlər "Milli Şura" üzvləri ilə müsavatçılar arasında, sözün əsl mənasında qırğın getməkdədir. Hələ "Milli Şura"nın payızda keçirdiyi uğursuz mitinqlərindən sonra başladılan növbəti savaş ilin sonuna qədər davam etməkdədir. Xüsusilə, sosial şəbəkələrdə ən sərt ifadələrlə, hətta təhqirlərlə müşahidə edilən bu davanın kim tərəfindən qazanılacağı da bəlli deyil. Çünki uzun illərdir davam edən bu savaşın qalibinin hansı tərəf olacağını da gözləməyə dəyməz.



**"Liderlər", davamlı olaraq, bir-birilərı ilə müharibə aparacaqlarını gizlətmirlər**

Yeri gəlmişkən, AXCP sədri Ə.Kərimlinin bir neçə ay öncə Sevinc Osmanqızına verdiyi məlum müsahibəsi ətrafında da söz-söhbətlər bitmir. Bu gün müsavatçılar cəbhə sədrini qarşı tərəfin - müxalifətin rəhbərliyini, birliyini pozmasına görə irəli sürdüyü ittihamlarına qarşılıq olaraq, "ağ yuyub-qara sərirlər". Belə ki, Ə.Kərimli həmin müsahibəsində müsavatçıları aksiya keçirə bilməməkdə, acizlikdə və zəiflikdə suçlamışdı. Maraqlısı da budur ki, aylardır davam edən bu savaşın uzanması bir çoxlarında təəccüb doğurur. Əslində isə burada təəccüblü heç nə yoxdur. Çünki qarşıdan növbəti prezident seçkiləri gəlir və həmin seçkilərə qədər siyasi ambisiyalarını reallaşdırmağa çalışan həm müsavatçıların, həm də cəbhəçilərin "liderləri", davamlı olaraq, bir-birilərı ilə müharibə aparacaqlarını gizlətmirlər.

Xatırladaq ki, Ə.Kərimlinin məlum müsahibəsindəki ittihamlar ictimailəşən kimi, Müsavat başqanının müavini Yadigar Sadıqov AXCP sədrini ədalətsizlikdə ittiham etmişdir. Yəni başqan müavininin statusu da hər iki düşərgə- nin üz-üzə gəlməsi prosesini daha da sürətləndirdi. Y.Sadıqova ən ağır cavabı isə "Milli Şura" funksioneri Eldəniz Quliyev verib. O, vaxtilə "Milli Şura"nı tərk edən Müsavatı tramvayda nəzarətçi görərək, özünü arxa qapıdan atan biletsiz sərnişinə bənzədib. Belə bir statusun altında nələrin baş verdiyini isə, sadəcə, təsəvvür etmək olar. Ona görə ki, söyüşün birini bir qəpiyə satan tərəflər ən ağır təhqirləri belə yazmaqdan çəkinməyiblər və bu gün həmin proses davam edir.

### Aksiya məkanları axura bənzədilir

Müsavatçılar "Milli Şura"nı və bu qurumun payızda keçirdiyi aksiya məkanı olan "Məhsul"u axur adlandırıblar. Vəziyyət o həddə qədər şişib ki, "Milli Şura"nın koordinasiya şurasının üzvü Gültəkin Hacıbəyli onları təhqir edən müsavatçılara daha bir ağır təhqir yazıb və sual edib ki, əgər aksiyanın keçirildiyi məkan axurdursa, müsavatçıların orada nə işləri vardı? Daha dəqiq desək, G.Hacıbəyli bununla onların aksiyalarına qatılan müsavatçıların da təhqir obyekti olduğunu xatırladaraq, "odun üzərinə benzin töküb".

Nəticə etibarilə payızdan başlayan müharibə davam edir və bu müharibənin qaliblərinin müəyyənləşəcəyini demək mümkün deyil. Yəni hər iki tərəfin məğlub olması və uduzması göz önündədir...

**RÖVŞƏN**

# Sinoptiklərdən xəbərdarlıq...

Sinoptiklər küləkli və əlverişsiz hava şəraiti ilə bağlı xəbərdarlıq edib. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında dekabrın 22-si axşamdan 24-ü axşamadək hava şəraitinin küləkli keçəcəyi, şimal-qərb küləyinin əsəcəyi, gündüz saatlarında cənub-qərb küləyi ilə əvəz olunacağı, arabir güclənəcəyi ehtimalı var. Azərbaycanın rayonlarında dekabrın 24-də bəzi rayonlarda arabir yağış, dağlıq ərazilərdə qar yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı gözlənilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, dekabrın 24-ü axşamadək Abşeron yarımadasında küləkli və rütubətli hava şəraitinin üstünlüyü meteohəssas insanlar üçün əsasən əlverişsizdir.



# Azərbaycanın ağbirçəklik ənənələri

***Ağbirçəklik adını qazanmaq tək-tük analara məxsus şərəfdir, şöhrətdir. Yüzdən, mindən birinin taleyinə yazılan xoşbəxtlikdir. Bu adı daşımaq son dərəcə çətin, müşkül, böyük dözüm və məsuliyyətdir. Çox-çox məhrumiyyətlərə qatlanan can yanğısıdır. Akademik Teymur Bünyadov yazır: "Ağbirçək başdan-binadan, əsildən-nəsildən gəlir, kökdən köklənir və pərvəriş tapır. Zamanın imtahanından, sınağından, dövrün tələbindən çıxan ağbirçək yaşla, başla, uzaqgörənlik və hünərlə bağlıdır. Lakin o da həqiqətdir ki, nadir hallarda, qabiliyyətə rəğmən, nisbətən cavan analar da əməli, hünəri, zəfəri, xilqəti və isməti ilə ağbirçək şərəfinə nail ola bilirlər. El-oba, xalq tərəfindən sevilir və qəbul edilir. Bu müqəddəs anlamı zaman təsdiqləmiş və tarix qəbul etmişdir. Ağbirçəklik səlahiyyəti və məsuliyyət dərəcəsi müxtəlif formada həyata keçirilir. Ailədə ağbirçək, nəsildə, tayfada ağbirçək, eldə-obada ağbirçək, dövlətdə, ölkədə və xalq arasında ağbirçək. Hərəsinin öz miqyası, öz yeri və öz mövqeyi.***

Ailədə ağbirçəklik ehtiramını qazanmaq nisbətən asandır. Ağbirçək ailənin bütün çətinliklərini və qayğılarını öz üzərinə götürür. Ən əvvəl övladlarının, nəvə-nəticələrinin düzgün tərbiyə olunmasında və ərsəyə gəlməsində müstəsna rol oynayır. Ailənin dərdi-səri, qibtəyəlayiq ünsiyyəti, xoş güzəranı və el-obada nümunəvi həyat tərzini sahmanlayır və nizamlayır. Ailə üzvləri arasında səmimiyyət çırağı yandırır. Ailə üzvləri el anasına ilahi bir qüvvə kimi yanaşır, onu qəlbən sevir və bütün tapşırıqlarını canla-başla yerinə yetirirlər. Belə nümunəvi ailə eldə-obada tanınır, sayılır və seçilir. Üzü ağ, alnı açıq, qəlbi təmiz və xətri əziz. Bu qəbildən olan ağbirçəklər Azərbaycanın hər yerində yetərincə və istənilən qədər".

El-obada ağbirçək olmaq daha çətin və daha məsuliyyətlidir. Belə ağbirçəklərin səlahiyyət dairəsi də genişdir və çoxşaxəlidir. Şərəfli adı qazananın ailəsi daha nümunəvi və daha ehtirama layiq olur. Bu el anaları şenliyin bütün üzvlərini eyni gözdə görər və eyni istəklə istəyər. Öz əməli, arzusu ilə seçilən bu ağbirçəklərin əməlisaleh, hökmü yenilməz və hünəri sevgi ilə qarşılanar. Özü bütöv, sözü bütöv ağbirçəklərin bir baxışı və bir davranışı hər şeyi həll edər. Beləleri əmin-amanlığı uca tutar, eli-ellə görüşdürər, arada inam və əqidə körpüsü yaradarlar. Dərdi qanan, dərdə yanan, kədəri və sevinci yarı bölən olarlar. Vayda da öndə, toyda da öndə. Ağbirçəyin bir baxışında dünya mənalanar və aləm şölə saçar.

Ailədə, el-obada sayılıb-seçilən, xalq arasında, ölkə miqyasında, bəlkə də daha geniş ərazidə tanınan el anası tarixi şəraitdə və münasib məqamda, öz şərəfli missiyasını yerinə yetirir. Lakin bu, çox çətin, müşkül və yüz ildən, min ildən birinə qismət olan məsuliyyət və hünərdir.

T.Bünyadovun fikrincə, hələ çox-çox qədimlərdən bəşər tarixinin ibtidai icma quruluşu dövründə ana əvəzsiz rol oynamışdır. Azərbaycanda, təxminən 40 min il bundan əvvəl başlayaraq, 6 min il bundan əvvələ qədərki geniş tarixdə qadınlar təkcə ailəyə deyil, nəslə, tayfaya başçılıq etmiş, madərşahlıq dövrünü yaşamışlar. Analarımız barışmaz hücumlara sinə gərmiş, amansız dəhşətlərlə üzləşmiş, çovğuna, borana, aclığa qarşı mübarizə aparmış, qələbəni və yaşayıb-yaratmağı təmin etmişlər. Tayfa ləyaqətini qoruyan, vətən təəssübünü çəkən analarımız yetərincədir. Qadınlar əmin-amanlığı, yaşayış tərzini qoruyaraq təsərrüfat sahələrinin, maddi və mənəvi dünyamızın yaradıcılarından olmuş, qəhrəmanlıq tariximizə işıq saçmış və bəzəmişlər. Qadın ilahiləşdirilərək, el anası, torpaq anası, vətən anası, ocaq anası, bərəkət anası və məhsuldarlıq rəmzi kimi mənalandırılmışdır.

Tarixin sonrakı mərhələsində, qadın öz aparıcı rolunu qismən itirsə də, ruhunu itirmədi, saxladı, yaşadı və yaratdı. Şərəfli adını və əməlini uca tutdu. Tariximizə yaraşıq oldu, onu daha da zənginləşdirdi. Təkcə el-obaya deyil, dövlətə də başçılıq etdi. Dövlət başçılarına yol göstərdi, məsləhət verdi, əməlini və istəyini uğurladı. Dar gündə, dar ayaqda arxa durdu, at belində qılınc-qalxan gəzdirdi, qanlı döyüşlərə atıldı və qələbəni təmin etdi...

Qafqazın cənub yamaclarında qərar tutan Azərbaycanın qədim sakinləri massagetlərin at minən, düşməndən qisas alan ağbirçək anaları olsa da, onların heç biri Tomrisə bərabər olmamışdır. Ölkənin azadlıq çırağını yandıran, əmin-amanlığını və müstəqilliyini qoruyan Tomris ana həmişə qələbə bayrağını uca tutmuşdur. O, mübarizəli tariximizdə el anası, inadlı, cəsarətli sərkərdə, uzaqgörən diplomat, təmkinli, tədbirli və inamlı hökmdardı...

Eradan əvvəl VI əsrin ortalarında neçə-neçə ölkələri fəth edən İran dövlətinin başçısı Kir Tomrislə əlaqəyə girmək və massagetləri ələ keçirmək üçün hiyləyə əl atır. Dul qadın Tomrislə həyat qurmaq istədiyini bəyan etsə də, rədd cavabı alır. Belə olduqda Kir qəzəblənir, hədə-qorxuya əl atır və massagetlərin üzərinə hücum edəcəyini bildirir. Tomris cavabında "Gəl, bu işindən əl çək, öz dövlətinə şahlıq et və bizim öz ölkəmizdə hökmranlıq etməyimizə paxıllıq eləmə... Əgər sən bizim üzərimizə yürüş etmək həvəsindəsənsə, onda Araz çayı üzərində körpü saldırmağı dayandır. Müqavimətsiz çayı keç, gəl ölkəmizə, biz çaydan üç günlük məsafəyə geri çəkilərik. Əgər sən bizi öz torpağına buraxmaq istəsən, onda sən də belə et". Ana səbri tükənməz, ana hökmü yenilməz, nifrəti güclü, ana intiqamı sonsuz.

Kir Tomris ananın bu məsləhətini və qənaətini eşidən kimi təşvişə düşür. Əyanlarını başına toplayaraq, məsləhət-məşvərət keçirir. O, Araz çayını keçir və hücuma başlayır. Hiylə nəticəsində Tomrisin oğlu, qoşununun sərkərdəsi Sparqapis namərdcəsinə əsir alınır. Tomris ana "Qisası qiyamətə qoymazlar" inadını yaşayır. El-obanı silahasarınmağa və düşməndən intiqam almağa səsləyir.

Elin razılığı ilə öz carçılarını yenidən Kirin yanına göndərib dedirtdirir: "Qaniçən Kir, bu hünərinlə öyünmə, şərab sənin də əqlini başından alar. Şərabın təsirilə sərxoş olanda, siz iranlılar da nalayiq sözlər işlədərsiniz. Sən mənim oğluma döyüş meydanında mərdi-mərdanə, kişi kimi yox, zəhərin gücünə, hiylə ilə qalib gəldin. İndi gəl mənim xeyirxah məsləhətimi dinlə: son massaget qoşununun üçdə birini namərdcəsinə məhv etdin, yaxşısı budur ki, oğlumu geri qaytar və nə qədər ki, əlim dəyməyib sağ-salamatsan, üzüsulu mənim torpağımdan çıx get! Əgər dediklərimə əməl etməsən, onda and olsun massagetlərin günəş tanrısına ki, nə qədər acgöz olsan da, səni qanla doyduracam".

Tomris dərhal qoşununu çəkdi və düşmən üstünə yeridi. Döyüşdə qan su yerinə axdı. Tarixdə görünməmiş qırğınlar oldu. Bu dəhşətli döyüşdə massagetlər qələbə çaldılar.

Kir döyüşdə həlak oldu. Qan çanağı qanda çatladı. Tomris Kirin cəsədini basdırdı və onun başının şərab tuluğuna soxulmasını əmr etdi. Kirə istehza ilə dedi: "Mən döyüş meydanında qələbə çalıb sağ qalsam da, hər halda, sən məni məhv etdin. Oğlumu hiylə ilə əsir aldın. İndi bax, budur əqibətin. Hədələdiyim kimi də edirəm: "Səni qanla doyururam".

T.Bünyadov daha sonra yazır: "Minilliklərdən xəbər verən ilk orta əsrlərdə kamilləşən, dastanlaşan "Kitabi-Dədə Qorqud" xalqımızın və türk dünyasının əzəmətli abidəsidir. Bu qəhrəmanlıq, vətənpərvərlik çələngi ağbirçək analarımızın, qız-gəlinlərimizin etibar, ilqar ucalığı, isməti və sədaqət örpəyidir. Dastanda ana, övlad məhəbbətilə alışıb-şölələnən çıraqdır, öyüd-nəsihət verən, kamala yetirən, düzgün, işıqlı yol göstərəndir. Qanturalı boyu bəyan ediləndə qadının gözəlliyi, ağlı və qəhrəmanlığı ilə bağlı çox mətləblər açılır və hikmət heyrətə qarışır. Selcan xatun gözəldir, tədbirlidir, qorxmazdır və qəhrəmandır. Bu qız Qanturalı ilə birlikdə namərd kafirlərə qənim kəsilir. "Selcan xatun at oynatdı. Qanturalının önünə keçdi. Qanturalı aydır: - Görüklüm, qanda gedərsən? - dedi. Aydır: - Bəy yigit! Baş əsən ola börk bolunmazmı olur? Bu gələn kafir çox kafirdir. Savaşalım, döyüşəlim, ölənimiz ölsün, diri qalanımız odaya gəlsin, - dedi". Gəlin ərinin qan-tər içində düşmənlə ölüm-dirim meydanında cəngavər tək vuruşduğunu görəndə, dəhşətə gəlir: "Selcan xatun bunu böylə gördü və içinə od düşdü. Bir bölük qaza şahin girmiş kimi kafirə at saldı. Bir ucundan qırıb kafiri, ol biri ucuna çıxdı". Qanturalı yağıları qırıb-qurtaran Selcanı tanımadı.

Selcan xatun "Yigitim, bay yigitim, yağının bir ucu mana, bir ucu sana" - dedi. Qanturalı bildi ki, bu yağı basıb dağıdan Selcan xatundur. Bir tərəfinə dəxi kəndi girdi, qılınc dartıb yürüdü, kafir başını kəsdi. Yağı basıldı, düşmən sındı. Selcan xatun nə qədər cəngavərlik göstərib kafir başı kəssə də, düşmənə qan uddursa da hünərli və təpərli nərini özündən üstün tutur, onun şərəfinə ibrətamiz hikmətlər söyləyir. Bəli, qəlblər bir döyünəndə, arzular qoşalaşanda ana Vətən də var, ülvi sevgi də, böyük qələbə də. Ağbirçəklərimiz dərs alıblar Selcan xatundan. Selcan xatun dərsi keçiblər qadınlarımız. Selcan xatun olun deyiblər qızlarımıza, gəlinlərimizə.

Orta əsrlərin qaynar çağlarında ailəyə, el-obaya, xalqa, dövlətə layiq çox ağbirçəklərimiz hünər göstəriblər, tərbiyə veriblər, uzaqgörənlərimiz sayılıb-seçilib və şərəfə layiq olublar..."

Sultan Eldənizə əmir rütbəsi verir, sonra da azyaşlı oğlu Arslan şaha onu qəyyum təyin edir. Lakin 1135-ci ildə Sultan II Toğrul vəfat edir. Hakimiyyətə gələn Sultan Məsudun təşəbbüsü ilə Eldəniz II Toğrulun arvadı Möminə xatunla evlənir. Arslan şahın həm qəyyumu, həm də atalığı olur. Mömünə xatundan Eldənizin iki oğlu Nüsrəddin Məhəmməd Cahan Pəhləvan və Müzəffərəddin Osman Qızıl Arslan ataya layiq oğullar, anaya layiq balalar. Müdam ataya arxa və anaya nurlu işıq olurlar.

T.Bünyadovun qeyd etdiyi kimi, mənbələrin və araşdırmaların çoxundan öyrənirik ki, Sultan Arslan şah geniş ərazidə qüdrətli dövlətin başçısı olsa da, əslində, onun bütün işlərini Eldəniz görür, hamıya qarşı öz hökmünü, gücünü göstərirdi. O, qulluqdan hökmdarlığa ucalmış Şərqin ən böyük dövlətlərindən sayılan Azərbaycan Atabəylər dövlətinin yaradıcısı kimi tanınmışdır. Sultan Arslan şah Atabəy Eldənizin külli-ixtiyar sahibi olmasından o qədər də razı qalmır və narazılığını bildirirdi. Lakin Möminə xatun həmişə onu başa salır, məsləhət verir "qəm yemə, sevin" - deyirdi. Közərən ocağı söndürür, qaynayan qəlbləri yumşaldırdı. Sultan Arslan şah gah püskürür, gah da anasının ağıllı məsləhətinə yatırdı.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Acı dad reflüksün ilkin göstəricisi ola bilər



Yeməkdən sonra ağızda qalan acı dad reflüks xəstəliyinin ilkin göstəricisi ola bilər. AZƏRTAC Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasına istinadla xəbər verir ki, reflüks xəstəliyi stress, bəzi qrup dərman preparatlarının qəbulu və ya hamiləlik zamanı meydana çıxan müvəqqəti narahatlıqdır. Lakin bu problem bəzən xronik hal da ala bilir.

Reflüks nədir? Normada qida borusunun mədəyə keçid nöqtəsində qapaq mexanizmi mövcud olur və qida mədəyə daxil olan zaman bu qapaq açılır. Mədənin dolu olduğu zaman isə qapaq qapanaraq qidanın və mədə möhtəviyyatının geri qayıtmasına imkan vermir. Bu qapağa qida borusu və mədəni ayıran qapaq deyilir. Qapaq mexanizminin yetərsizliyi mədənin turş möhtəviyyatı qida borusuna keçir və onu zədələyərək iltihab törədir ki, bu da qastroezofageal reflüks xəstəliyi (QERX) adlanır. Problemin aradan qaldırılması üçün dərmanlardan istifadə əvəzinə turşuluğu artıran qidalardan çəkinmək daha effektiv nəticələr verir. Bunlara yağlı, ədviyyatlı, qızardılmış, pomidor, portağal və bu kimi bir sıra qidalar aiddir.

## QAR İNSAN PSİXOLOGİYASINA NECƏ TƏSİR EDİR?



Yeni ildə əla bir qar yerinə düşərdi, amma hələ ki, sinoptiklər qar barədə danışmır. Psixoloqlar isə danışır: Onlar hesab edirlər ki, qar insan psixologiyasına təsir edirmiş. Belə ki, mütəxəssislər qarın insanı rahatlatdığını , ağ görünüşü ilə insanların psixologiyasına müsbət təsir göstərdiyini bildiriblər. Ağ rəngin könül açan və fərəhləndirici təsir göstərdiyini bildirən psixologiya mütəxəssisi İhsan Öztekin yay aylarında yaşıl və mavinin, payızda sarının, qışda isə ağın insan psixologiyasına xüsusi təsir göstərdiyini qeyd edib. Bu dönəmdə ailələrin birbirinə daha çox zaman ayırmağı lazımdır: "Soyuq olmasına baxmayaraq, insanın içini isidən qış ayında insanlar tədbir görməyidə unutmamalıdır. Pozitiv təsir qazanmaq üçün mənfi təsirdən uzaqlaşmaq gərəkdir. Odur ki, insanlar qar yağanda yaşaya biləcəkləri gözəllikləri qaçırmamalıdırlar".

## ELAN

Bakı şəhəri, Nərimanov rayonu, M.Sənani küçəsi 44 ünvanda yaşayan Hacıyeva (Abdullayeva) Nərgiz Mahmud qızının adına verilmiş evin küpçəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

x x x

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin IV kurs tələbəsi İsmayılova Atina Nadir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

x x x

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin qiyabi şöbə üzrə IV kurs tələbəsi Abbasova Jalə Elçin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

x x x

Nağıyev Elxan Qulu oğluna məxsus əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

## BAŞSAĞLIĞI

Mirkazım Seyidov Hüseyn Əzizoğluya yaxın qohumunun vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**



## "İmperator" yenidən "Qalatasaray"da!

Türkiyəli təcrübəli baş məşqçi Fatih Terim İstanbulun "Qalatasaray" futbol klubunun baş məşqçisi təyin edilib. Türkiyənin "Ntvspor" kanalının məlumatında deyilir ki, təcrübəli mütəxəssis ilə 1,5 illik müqavilə imzalanıb. Beləliklə, Fatih Terim karyerasında dördüncü dəfə "Qalatasaray" klubunun baş məşqçisi olacaq. Belə ki, təcrübəli çalışdırıcı 1996-2000-ci, 2002-2004-cü, 2011-2013-cü illərdə də "cim-bom"a rəhbərlik edib. Xatırladaq ki, 64 yaşlı idman mütəxəssisi "Qalatasaray"ın sonuncu turda "Yeni Malatyaspor" klubuna 1:2 hesabı ilə məğlub olaraq liderliyi əldən verməsindən sonra istefaya göndərilən İqor Tüdoru əvəzləyib.

Yeni baş məşqçi ilə klubun ev oyunlarını keçirdiyi "Türk Telekom Arena" stadionunda imzalanma mərasimi keçiriləcək.

## Fernando Alonso: "Motoru dəyişdirmək üçün düzgün vaxtdır"



Formula 1 yarışlarında mübarizə aparan "McLaren"in pilotu Fernando Alonso gələn mövsüm komandasının "Renault" motorundan istifadə edəcəyinə münasibət bildirib. SİA-nın məlumatına görə, 2005-2006-cı illərdə "Renault" motoru ilə çempion olan ispan pilot 2009-cu ildən sonra ilk dəfə bu motordan istifadə edəcəyini qeyd edib.

O, bolidinə "Renault" motoru qoyulacağı üçün sevindiyini deyib. 36 yaşlı pilot "McLaren"-"Renault" layihəsinə inandığını vurğulayıb. Üç ildir "Honda" motorundan istifadə edən F.Alonso yeni mövsümdə podyumlara çıxmağın və qalibiyyətlərin xəyalını qurur: "Motoru dəyişdirmək üçün düzgün vaxtdır. Mənim "McLaren"-"Honda" layihəsindən böyük gözləntilərim var idi. Ancaq son 3 ildə istədiyimiz nəticələri qazana bilmədik. Gözlədiyimiz kimi olmadı. İndi "McLaren" üçün dəyişiklik vaxtıdır. "Renault" ilə işləmək ümidvericidir. "Red Bull"un "Renault" motoru ilə qazandığı nəticələrdən sonra gələn mövsüm işin olduqca ümidliyəm. Düzdür, bəzi çatışmazlıqlar var. Ancaq qalibiyyət üçün mübarizə aparmaq olar. Qısası, "McLaren"də tamamilə fərqli bir tablo olacaq. Evimə qayıtmış kimi hiss edirəm. "Renault" mənim ikinci ailəmdir. Bu, yaxşı şirkətdir və yaxşı motorları mövcuddur. Sözügedən layihədən heç bir şübhəm yoxdur".

## Mario Qomes "Ştutqart"la müqavilə imzalayıb

"Volfsburq"un hücumçusu Mario Qomes komandadan ayrılıb. SİA-nın məlumatına görə, Almaniya yığmasının üzvü karyerasını Bundesliqada davam etdirəcək. 32 yaşlı hücumçu sabiq klubu "Ştutqart"la 2020-ci ilə kimi müqavilə imzalayıb. Bu keçid üçün "Ştutqart" "Volfsburq"a 3 milyona avro təzminat ödəyib. Qeyd edək ki, Qomes peşəkar karyerasına məhz "Ştutqart"da başlayıb. O, 2003/09-cu illəri bu komandada keçirib.

## "Çelsi" Kurtuanı dünyanın ən çox qazanan qolkiperi etməyə hazırlaşır



"Çelsi" futbol klubu qapıçı Tibo Kurtua ilə müqavilənin müddətini uzatmağa dair işlərini davam etdirir. AZƏRTAC xəbər verir ki, londonluların rəhbərliyi Belçika yığmasının qapıçısını dünyanın ən çox qazanan qolkiperi etməyə hazırlaşır. Belə ki, "Çelsi" Kurtuaya həftəlik 200 min funtdan artıq məvacib nəzərdə tutan müqavilə təklif edir. Razılıq 2023-cü ilədək hesablanıb. Kurtua londonluların may ayında ilk təklifini qəbul etməmişdi. Hazırda klubda bu təklifin çox yaxşı olduğundan qəbul ediləcəyinə ümid edirlər.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**